

## YENİ RƏHBƏRLİK, YENİ ÜMİDLƏR

Rövşən Nəcəfin AFFA prezidenti kimi səsləndirdiyi fikirlər futbol ictimaiyyəti tərəfindən müsbət qarşılanıb. Yeni rəhbər uğur qazanmaq üçün zamana ehtiyac olduğunu, bütün futbol ictimaiyyətinin ortaq əməyi nəticəsində bunu bacara biləcəklərini qeyd edib.

SƏHİFƏ 16-da

# Qarabağın azadlığı bəzilərində narahatlıq yaradıb



Prezident İlham Əliyev bildirib ki, Qarabağı azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzilərində narahatlıq yaradıb: "Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik".

Brüsseldə keçirilən üçtərəfli görüşə toxunan dövlət başçısı bildirib ki, bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki son günlər həm ABŞ-nin, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında inandırmağa çalışıblar ki, bu görüş Azərbaycanın əleyhinə deyil.

SƏHİFƏ 2-də


# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ




6 APREL ŞƏNBƏ 2024 № 12 (4163) Qiyməti - 40 qəpik www.kaspi.az

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB





## AVTOBUSLAR ELEKTRİKLƏŞMƏ YOLUNDA

2024-cü il nəqliyyat sektorumuzda elektrikləşmə ili kimi tarixə düşə bilər. İl ərzində bu istiqamətdə ciddi addımların atılması nəzərdə tutulur. Ölkəyə 100 yeni elektrik mühərrikli avtobusun gətirilməsi planlaşdırılır.

SƏHİFƏ 10-da



## XARİCİ ŞİRKƏTLƏR ERMƏNİSTANA QARŞI

Ermənistan hökuməti xarici şirkətlərlə olan məhkəmə proseslərini uduzsa, bir neçə yüz milyon dollar təzminat ödəməli olacaq. Bu, bir daha sübut edir ki, hakim partiyanın idarəetmə sistemi sırf "cibimi doldurum" tezisi üzərində qurulub. Cərimə isə sadə ermənin vergisindən ödəniləcək.

SƏHİFƏ 5-də



BRÜSSELDƏ ERMƏNİ REVANŞİZMİNƏ NÖVBƏTİ DƏSTƏK

# QƏRBİN YENİ "BARIT ÇƏLLƏYİ" PLANI

ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycan liderinə zəng etməsi İlham Əliyevin beynəlxalq aləmdəki siyasi çəkisinin göstəricisidir. Amma Ermənistanla yüksək səviyyəli təmasların "üçüncü tərəfə qarşı yönəlmədiyi"nə dair "arqument"lərə siyasi diletantların belə gülməyi tutar.

**AYIRICI GƏRGİNLİK XƏTLƏRİ ÇƏKMƏK CƏHDİ**

Ermənistanda Qərbin təsirinin gündən-günə artması Cənubi Qafqaz bölgəsində möhkəm sülh və sabitlik əvəzinə ayırıcı gərginlik xətlərinin çəkilməsinə səbəb olacaq. Kollektiv Qərbin ABŞ və Fransanın himayəsi altında prioritet məramı olan Rusiyanı sıxışdırıb bölgədən çıxarmaq siyasətinin fəsadlarını belə görünür ki, nə okeanın o tayında, nə də Avropada yetərincə dərk etmirlər.

**İLHAM ƏLİYEVİN NÜFUZUNUN GÖSTƏRİCİSİ**

İstənilən halda ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycan liderinə zəng etməsi İlham Əliyevin beynəlxalq aləmdəki siyasi çəkisinin göstəricisidir. ABŞ o dövlətlərdən deyil ki, atdığı addıma görə kiçik dövlətlərdən üzrxahlıq etsin, yaxud izahat versin.

SƏHİFƏ 3-də



## NƏZARƏTSİZ NÖVBƏLƏR, DONAN SİSTEMLƏR...

Xəstəxanalarda icbari tibbi sığortanın tətbiqindən sonra yaranan növbələr ciddi narazılıq doğurur. Uzun müddət keçməsinə baxmayaraq, hələ də tibb müəssisələrində onlayn növbə rejimi istifadə edilmir.

SƏHİFƏ 7-də



## ÇİLÇIRAQ BAZARINDA VƏZİYYƏT NECƏDİR?

Əvvəllər əsasən, cehiz bazarlığında çilçıraqlar önəmli əşyalardan hesab olunurdu. Hamı ən yaxşısını, ən keyfiyyətlisini almağa çalışırdı. İndi vəziyyət dəyişib. LED işıqların meydana çıxması ilə çilçıraqlar bir çox insanlar tərəfindən keçmişin yadigarları hesab edilir. Bu da özünü bazarda hiss etdirir.

SƏHİFƏ 13-də

Xoşbəxt məmləkətin xoşbəxt ziyalısı

# HƏR GÖRÜŞ BİR XATİRƏDİR



Nəğməkar şair, nasir və tərcüməçi Baba Vəziroğlu: "Tanrıya çox şükür edirəm ki, bu günləri də gördük. Mən sovet dövründə Qarabağı qarış-qarış gəzmişəm. Amma həmişə özümü orada qonaq hiss etmişəm. Son üç il yarımda biz o torpaqlara ev sahibi kimi gedirik".

SƏHİFƏ 8-9-da



## GÖZÜMÜZÜ YAŞARDAN İDXAL

Azərbaycan Qazaxıstandan soğan idxal edəcək. Sahibkarlar məsələni qıtlıqla əlaqələndirirlər. Kənd Təsərrüfatı Nazirliyi isə soğan tədarükümüzdə heç bir çətinlik olmadığını bildirir.

SƏHİFƏ 11-də



Rayonlar ələbaxan olmayacaqlar

SƏHİFƏ 14-də



Fransanın riyakar və qərəzli siyasəti

SƏHİFƏ 6-da




"Azəriqaz"a müraciətlərin sayı azalıb

SƏHİFƏ 2-də



"Prius"ların dövrü bitir?

SƏHİFƏ 12-də



Zamanı qabaqlayan rejissor

SƏHİFƏ 15-də

ÜÇ ƏSRİN QƏZETİ Kaspi






# “Azəriqaz”a müraciətlərin sayı azalıb

Cari ilin yanvar-mart aylarından indiyə qədər Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “Azəriqaz” İstehsalat Birliyinə 81 330 müraciət daxil olub. “Report” xəbər verir ki, bunu İstehsalat Birliyinin 104 Qəza-çağrı xidməti şöbəsinin rəisi Xalidə Şimşək “Açıq qapı” aksiyası zamanı bildirib. Onun sözlərinə görə, daxil olan müraciətlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 19 829 müraciət azalıb. X.Şimşək bildirib ki, bu il ərzində qaz təzyiqi ilə bağlı 3 734 müraciət daxil olub: “Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1 473 müraciət azdır. Bu müddət ərzində qaz təchizatı ilə bağlı müraciətlərdə 3 658 azalma mövcuddur. Bu il daxil olan müraciətlər arasında sızma ilə bağlı müraciətlərin sayı 469 ədəd azalıb”.

X.Şimşək vurğulayıb ki, müraciətlərin azalmasına səbəb bu müddət ərzində aparılan maarifləndirmə, yenidənqurma işləri olub: “Aparılan yenidənqurma və bərpa, həmçinin sayğacların dəyişdirilməsi işləri sayəsində qaz təzyiqi və sayğacların istismarı ilə bağlı müraciətlərin sayı azalıb”.



# ABŞ-Aİ-Ermənistan görüşü keçirilib

Brüsseldə ABŞ-Avropa İttifaqı-Ermənistan görüşü keçirilib. “Report”un məlumatına görə, Ermənistanın baş naziri Nikol Paşinyan, ABŞ dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen, Aİ Xarici məsələlər üzrə Ali Komissarı Jozep Borrel görüşdən sonra bəyanatlarla çıxış ediblər.

“Biz Ermənistana 65 milyon dollardan çox yardım etməyi planlaşdırırıq. Bu, iki il əvvəllə müqayisədə 50%-dən çox artım deməkdir”, - Antoni Blinken bildirib.

Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen isə qeyd edib ki, Aİ dörd il ərzində Ermənistana 270 milyon avro məbləğində qrant ayıracaq.

“Ermənistan ərazi bütövlüyü və suverenliyin qarşılıqlı tanınması əsasında Azərbaycanla münasibətlərin normallaşdırılmasına sadiq qalır”, - bu fikirlər isə Nikol Paşinyana məxsusdur.

# QARABAĞIN AZADLIĞI BƏZİLƏRİNDƏ NARAHATLIQ YARADIB



**Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd edib. O, bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirib.**

Prezident İlham Əliyev aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Mövlud Cavuşoğluya ölkəmizdə böyük hörmət bəsləndiyini vurğulayaraq, onun bütün dövrlərdə Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdiyini bildirib.

### AZƏRBAYCAN-TÜRKİYƏ BİRLİYİNİN GÜCÜ

Dövlət başçısı bu gün Azərbaycan-Türkiyə birliyinin daha da güclənməsinin önəmini qeyd edərək bildirib ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər.

### “BİZƏ OLAN TƏZYİQLƏR DURMADAN DAVAM EDİR”

Azərbaycan Prezidenti bildirib ki, Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzilərində narahatlıq yaradıb. “Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik”, - deyə vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, o vaxtdan bu günədək bizə olan təzyiqlər durmadan davam edir. Avropa Parlamenti təhqirlə dolu çirkin qətnamələr qəbul edib. AŞPA nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edib. Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir.

### CƏNUBİ QAFQAZ ÜÇÜN NÖVBƏTİ TƏHLÜKƏ MƏNBƏYİ

ABŞ, Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçirilən üçtərəfli görüşə toxunan dövlət başçısı bildirib ki, bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki son günlər həm ABŞ-nin, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında inandırmağa çalışıblar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Prezident İlham Əliyev qeyd edib ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda iş birliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

Dövlət başçısı bir daha qeyd edib ki, keçən ilin sentyabrından indiyədək Avropa Parlamentinin, Avropa Şurasının Azərbaycan əleyhinə bəyanatlar verməsi, Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək.



Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd edib və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirib.

## “SİZ DÜNYADA ÖNƏMLİ BİR LİDERSİNİZ”

Azərbaycan Prezidentinin andiçmə mərasimindəki çıxışında Türk dünyasını “ailəmiz” adlandırdığını qeyd edən Mövlud Çavuşoğlu isə diqqətə çatdırıb ki, dövlət başçısının bu çıxışında Türk dünyasının birliyi ilə bağlı dediyi çox dəyərli fikirlər böyük məmnunluqla qəbul olunub: “Siz dünyada önəmli bir lidersiniz və Sizin Türk dünyasının güclənməsi istiqamətində atdığınız addımlar bütün Türk dünyasına bəllidir”.

Prezident İlham Əliyev qeyd edib ki, həqiqətən də Türk dünyası bizim bir ailəmizdir və biz bu istiqamətdə çalışmalıyıq.

Mövlud Çavuşoğlu deyib ki, Azərbaycanın Qarabağ Zəfərini həzm edə bilməyən qüvvələr var və onlar bu istiqamətdə öz siyasətlərini aparmağa çalışırlar.

# QƏRBİN YENİ "BARIT ÇƏLLƏYİ" PLANI

ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycan liderinə zəng etməsi İlham Əliyevin beynəlxalq aləmdəki siyasi çəkisinin göstəricisidir. Amma Ermənistanla yüksək səviyyəli təmasların "üçüncü tərəfə qarşı yönəlmədiyi"nə dair "arqument"lərə siyasi diletantların belə gülməyi tutar.



RÜSTƏM QARAXANLI

Ermənistanda Qərbin təsirinin gündən-günə artması Cənubi Qafqaz bölgəsində möhkəm sülh və sabitlik əvəzinə ayırıcı gərginlik xətlərinin çəkilməsinə səbəb olacaq. Kollektiv Qərbin ABŞ və Fransanın himayəsi altında prioritet məramı olan Rusiyanı sıxışdırıb bölgədən çıxarmaq siyasətinin fəsadlarını belə görünür ki, nə okeanın o tayında, nə də Avropada yetərincə dərk etmirlər. Ermənistanda artan revanşizm təzahürləri, Azərbaycanla şərti sərhəddə intensivləşən atəşkəsin pozulma halları göstərir ki, ermənilərin Qərblə flirtinin acı nəticələrini bütün region çəkməli olacaq. Bu günlərdə "Gallup"un keçirdiyi sorğunun nəticələri ehtimalımızı təsdiqləyir: ermənilərin təqribən 87,5 faizi Azərbaycana məxsus dörd kəndin qaytarılmasına qarşıdırlar. Cəmi üç il öncə sülh üçün imdad diləyən bir xalqın bu gün nümayiş etdirdiyi aqressiyaya qol-qanad verən məhz Qərbin siyasi və hərbi konturlar almağa başlayan dəstəyidir.



## ERMƏNİ REVANŞİZMİNƏ QƏRB DƏSTƏYİ

Azərbaycanın 5 aprel ABŞ-Avropa İttifaqı-Ermənistan sammitindən narahatlığının başlıca səbəbi məhz budur. Aİ-nin guya "müşahidəçi" missiyasının Ermənistanda yerləşməsi də məhz bu günə hesablanmış addım idi. İndi izlənənlər o vaxt Prezident İlham Əliyevin Aİ missiyasına sərt reaksiya verməkdə haqlı olduğunu sübut edir. İlk gündən siyasi ekspertlər Avropanın bu gedişinin Rusiyanı Ermənistandan sıxışdırmağa yönəlmiş addım olduğunu proqnozlaşdırırlar. Bu, təbii ki, Qərb-Ermənistan-Rusiya üçbucağının problemidir. Ancaq bu problem fonunda baş verənlərin Azərbaycanın milli maraqlarına toxunduğu şübhəsizdir və rəsmi Bakının ilk gündən 5 aprel görüşünün keçirilməsinə açıq formada narazılıq bildirməsinin möhkəm əsaslı məntiqi var.

Bu gün Avropanın kəşfiyyat missiyasının tədricən NATO-nun Ermənistandakı mövcudluğuna transformasiya olunduğu açıq müşahidə edilir. Amerikalı hərbi heyətlərin İrəvana səfərləri adi hal almağa başlayıb. NATO-nun əsas üzvlərindən biri - Fransa Ermənistana aşkar hərbi yardım edir. Əgər Qərbin bu dəstəyi Ermənistanı Rusiyanın əlindən almağa yönəlibsə, edilən hərbi yardımların təyinatına dair suallara cavab vermək lazımdır. Ermənistan bu silahlarla Rusiya ilə müharibə edəcək? Bunun üçün Ermənistanın ən azı Rusiya ilə birbaşa sərhədi olmalıdır. Yaxud, günlərin bir günü Gürcüstan siyasi xəritədən qeyb olmalıdır ki, Ermənistan Rusiya ilə üz-üzə qala bilsin. Hamı bilir və burada gizlətməli heç nə yoxdur: Qərbin Ermənistanı silahlandırmasının məntiqi yekunu Azərbaycanla hərbi toqquşmaya hesablanıb. Yaxud İrəvan bu dəstəkdən ürəklənib Bakıya qarşı revanş cəhdlərinə əl atacaq. Ermənistanın dövlət, ermənilərin isə bir xalq olaraq xislətinə yaxşı bələdik.

## ABŞ DÖVLƏT KATİBİ ANTONİ BLİNKENİN "TƏMİNATLAR"I

ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib 5 aprel görüşü ilə bağlı izahat verməsi göstərir ki, Vaşinqtonda Bakının narazılığı ilə hesablaşmaq məcburiyyətindədirlər. Ermənistanla yüksək səviyyəli təmasların "üçüncü tərəfə qarşı yönəlmədiyi"nə dair "arqument"lərə siyasi diletantların belə gülməyi tutar. Necə yəni "üçüncü tərəfə qarşı yönəlməyib"? Bəs edilən hərbi yardımlar, vəd olunan hərbi-siyasi dəstək, hətta bu dəstəyin maliyyə mənbələrinin göstərilməsi nəticə etibarilə kimə qarşı yönəlib? Ermənistan İranla müharibə etmək istəyir? Yoxsa Gürcüstanla?

Yeri gəlmişkən, İranın müəmmalı susqunluğu da izah tələb edir. Üç ildir dilində "qırmızı xətt" ifadəsi bitən İran parlamentinin qaragüruh deputatları və hərbi "klip"lər vasitəsilə meydan oxumağı sevən generalları bu barədə nə düşünürlər?

Mövcud reallıqda qonşu və dost Gürcüstanın da konkret mövqe bildirməsi vacibdir. Tbilisi kəskin anti-Rusiya siyasətinin fəsadlarını öz üzərində hiss edib və bu gün Ukraynadakı müharibə fonunda Qərbin təzyiqlərinə baxmayaraq, Moskvaya qarşı ikinci cəbhənin açılışından boyun qaçırması Gürcüstan hakimiyyətinin düzgün nəticə çıxardığının göstəricisidir. Ancaq bu siyasət yalnız Rusiya ilə münasibətlər kontekstində yetərli deyil. Ərazisindən keçən qlobal transmilli layihələrin sabit işləməsi və büdcəyə valyuta gətirməsi üçün Tbilisinin İrəvanın təhlükəli siyasətinə biganə qalmaması lazımdır.

## QƏRBİN HESABLARI AZƏRBAYCAN ÜÇÜN MANEƏ OLA BİLMƏZ

İstənilən halda A.Blinkenin Azərbaycan liderinə zəng etməsi İlham Əliyevin beynəlxalq aləmdəki siyasi çəkisinin göstəricisidir. ABŞ o dövlətlərdən deyil ki, atdığı addıma görə kiçik dövlətlərdən üzrxahlıq etsin, yaxud izahat versin. Ancaq Blinkenin bu zəngi, 5 aprel görüşünün Azərbaycana qarşı yönəlmədiyinə qarşı təminatlar verməyə çalışması onu sübut edir ki, Qərbdə rəsmi Bakının hadisələrin mövcud gedişatına müdaxilə və ya təsir etmək rıçaqlarının olduğu dərk edilir.

Blinkenin ardınca Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Prezident İlham Əliyevə zəngini də bu kontekstdə dəyərləndirə bilərik.

Təbii ki, Azərbaycan milli maraqlarına və xalqının mənafeləri, təhlükəsizliyinə qarşı yönəlmiş, yaxud yönələcək istənilən aqressiv tendensiyaları neytrallaşdırmaqda legitim hüquqa sahibdir. Nə Afrikadan qovulub Qafqazda yerləşmək istəyən Fransa, nə Ukraynada istədiyinə nail ola bilməyib Ermənistan vasitəsilə Rusiyaya qarşı ikinci cəbhə açmaq istəyən ABŞ-nin hesabları Azərbaycan üçün maneə ola bilməz. Bakı ərazi bütövlüyünü təmin edib və 30 illik işğala son qoyub. Bu reallığın inkarına yönələn istənilən revanşist təzahür sərt cavabını alacaq. Bunu Qərbdə də, Ermənistanda da anlamalıdırlar. Tarix göstərir ki, buna Ermənistanın daha çox ehtiyacı var.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# Azərbaycan-Konqo MÜNASİBƏTLƏRİ YENİ MƏRHƏLƏDƏ

Konqo Prezidentinin səfəri Azərbaycanın beynəlxalq siyasətdə tutduğu mövqe və əldə etdiyi nailiyyətlərin daha da irəlilədilməsinin göstəricisi kimi dəyərləndirilə bilər. Konqo Fransa müstəmləkəçiliyindən əziyyət çəkmiş ölkə kimi Azərbaycanın neokolonializmə qarşı siyasətini yüksək qiymətləndirir.



AQŞİN KƏRİMOV

Aprelin 4-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso Azərbaycana səfərə gəldi. Onunla Azərbaycan Prezidenti İlham Əliyev arasında təkbətək və geniştərkibli görüşlər keçirildi və liderlər daha sonra mətbuata birgə bəyanatla çıxış etdilər.

Konqo Prezidentinin səfəri Azərbaycanın beynəlxalq siyasətdə tutduğu mövqe və əldə etdiyi nailiyyətlərin daha da irəlilədilməsi kontekstinə əlavə dəyər verir.

Çünki Konqo liderinin səfəri zamanı imzalanan sənədlər, o cümlədən "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə" iki ölkənin münasibətlərinin parlaq gələcəyini ortaya qoyur.

### ƏLAQƏLƏR İNKİŞAF ETMƏLİDİR

Prezidentlərin birgə bəyanatından da göründüyü kimi, Azərbaycanla Konqonun münasibətlərində pozitiv səhifə yaradan əsas platforma Qoşulmama Hərəkatının prioritetləri ətrafında sıx birləşmək olub.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə tutduğu mövqe və onun koronavirus pandemiyasının tüğyan etdiyi zamanlarda humanitar yardımları təbii ki, Konqonun da diqqətindən yayınmayıb. Üstəlik, Konqo vaxtı ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkmiş ölkə kimi Azərbaycanın neokolonializmə qarşı siyasətini yüksək qiymətləndirir.

Deyə bilərik ki, bunlar konseptual formada Bakı ilə Brazzavil arasındakı əlaqələrin dinamikasına yaxşı təsir göstərib. İndi isə bu münasibətləri möhkəm iplərlə bərkitmək və onu daha da inkişaf etdirmək prioritetdir.

İkitərəfli münasibətlərdə aktuallaşan çağırışlar sözsüz ki, əməkdaşlığın yeni səhifələrini vərəqləmək xarakterini gündəmə gətirir. Eyni zamanda bu amillər, çoxtərəfli əməkdaşlıq formatındakı qarşılıqlı dəstək və əlaqələri sarsılmaz edən tezisləri əhatə edir.

Bu mənada, İlham Əliyevlə Deni Sassu-Nqessonun danışıqları həm ikitərəfli, həm də çoxtərəfli münasibətlərin dinamikasına, təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verən gündəliyi ölçməyə imkan verir.



## İQTİSADİ TƏŞVİQLƏR

Liderlərin görüşlərindəki iqtisadi və energetika sferalarında apardığı müzakirələr (karbohidrogen, kənd təsərrüfatı, mədənçilik, informasiya, bərpaolunan enerji sahələrində iki ölkənin mühüm potensialının olduğu qeyd edilib) əlaqələrin spektrini dayanıqlı edən maliyyə potensiallarını da təşviq edir.

Deməli, iki ölkənin qarşılıqlı müsbət əməkdaşlıq xarakteri ümumi maraq doğuran digər məsələlərdə birgə çalışmaq üçün düsturları qeyd edir.

Bu düsturlar təhlükəsizlik maraqları da nəzərə alınmaqla:

- İkitərəfli iqtisadi, siyasi əlaqələri şaxələndirmək;
- Qarşılıqlı şəkildə biznes mühitini yaxşılaşdırmaq üçün investisiya səylərini təşviq edir.

### COP29-DA ƏMƏKDAŞLIQ

Azərbaycan noyabr ayında mötəbər beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) - ev sahibliyi edəcək. Azərbaycan burada Konqo ilə də əməkdaşlıq qurmaqda maraqlıdır və bunu Prezident İlham Əliyevin mətbuata birgə bəyanat zamanı bu sitatında görə bilirik: "Mən bu gün cənab Prezidenti COP29 tədbirində iştirak etmək üçün dəvət etmişəm və nümayəndə heyətlərinin üzvlərinə də göstəriş verildi ki, bu məsələ ilə bağlı da ciddi əməkdaşlıq yaradılsın. Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər".

## AZƏRBAYCAN KONQONUN BU İDDİALI HƏRƏKƏTLƏRİNİ NƏZƏRƏ ALIR

Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə Konqo ilə əməkdaşlıq etmək istəyinin səbəbi var.

Üçdə ikisi meşələrlə örtülü olan və meşələrin qırılma səviyyəsi aşağı olan Konqo Respublikası Konqo hövzəsində ekosistemlərin qorunmasında mühüm rol oynayır. Bildirək ki, Konqo Respublikası COP28 tədbirində öz ərazisinin müstəsna biomüxtəlifliyini qorumaq və ölkənin meşə örtüyünü, ekosistemlərini qorumağı gündəliyə gətirib. Konqo Respublikası biomüxtəlifliyi və iqlimi qorumaq üzrə öhdəliklərini, ərazisini yenidən meşələşdirmək ambisiyasını nümayiş etdirir.

Beləliklə, Konqo buna uyğun gələn dayanıqlı iqtisadi modeli təşviq etməklə öz iddialı vizyonunu ortaya qoyub. Bu, hətta beynəlxalq tərəfdaşların da diqqətini çəkir. Azərbaycan da COP29-a ev sahibliyi edəcək ölkə olduğundan Konqonun bu iddialı hərəkətlərini nəzərə alır. Konqonun da Azərbaycanın təcrübəsinə ehtiyac var və bunu Prezident Deni Sassu-Nqesso belə ifadə edib:

"Biz Azərbaycanın bu yaxınlarda digər ağır mübarizə sahəsində - iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu alqışlayırıq, çünki Azərbaycan COP29-a ev sahibliyi edəcək. Biz artıq ölkələrimiz arasında qurulmuş əlaqələri alqışlayırıq və Azərbaycanı COP29-a hazırlıq çərçivəsində də alqışlayırıq. Biz Azərbaycan rəsmilərini dəvət etdik ki, iqlim dəyişikliklərinə qarşı mübarizədə ölkəmizin yanında olsun.

Biz Prezidentə Konqoda, Brazzavildə təşkil etdiyimiz dünyanın ən böyük üç tropik meşə hövzəsi - Amazoniya, Cənub-Şərqi Asiyada Borneo Mekonq və Konqo hövzəsi sammitində güddüyümüz məqsədlər barəsində məlumat verdik. Bu sammit ötən ilin oktyabrında keçirilib və biz Prezidentə yalnız bu sammitin uğuru barəsində məlumat verə bilərik".

Azərbaycanla Konqo arasındakı bu istiqamətdəki mümkün tərəfdaşlıq iqlim dəyişikliyi ilə mübarizə, biomüxtəlifliyin qorunması və bərpaolunan enerji üzrə qlobal səylərə əhəmiyyətli töhfə verə bilər.

# XARİCİ ŞİRKƏTLƏR ERMƏNİSTANA QARŞI



Əgər Ermənistan hökuməti xarici şirkətlərlə olan məhkəmə proseslərini uduzsa, bir neçə yüz milyon dollar təzminat ödəməli olacaq. Bu, bir daha sübut edir ki, hakim partiyanın idarəetmə sistemi sırf "cibimi doldurum" tezisi üzərində qurulub. Cərimə isə sadə erməni vətəndaşının vergisindən ödəniləcək.

FUAD ABASOĞLU

Nikol Paşinyan hökuməti iqtisadiyyat və siyasət sahəsində naşı olduğunu, illər keçsə də heç bir təcrübə qazanmadığını atdığı hər addımı ilə sübut etməkdən yorulmur. Ermənistanın beynəlxalq investorlar arasında reytinqi enməkdə davam edir. Artıq bir sıra iri şirkətlər hökumətə qarşı Beynəlxalq Arbitraj Məhkəməsində iddialar qaldırıblar. Onların sırasına "Sanitech International Group", "Lydian International LLC"in səhmdarlarından sayılan "Amulsar Investor Venture", İsveçrənin "Walnort Finance Limited" şirkətləri də daxildir.

### 40 MİLYON DOLLARLIQ İDDİA

"Sanitech International Group" rəsmi İrəvana qarşı investisiya iddiası qaldırmaq niyyətini elan edən ilk şirkət olub. İrəvan Bələdiyyəsi müqavilə üzrə öhdəliklərini yerinə yetirməyib və nəticədə şirkəti müqavilələrinin müddəti bitmədən kənarlaşdıraraq dövlətə məxsus şirkətlə əvəz edib. "Saintech" iddia edir ki, yanaşma siyasi motivli olub və dövlət şirkəti xarici investordan qat-qat əlverişli şərtlərlə fəaliyyət göstərir. Bu isə erməni hökumətinin xarici investorlara münasibətində özbaşınalığa və ayrı-seçkiliyə yol verdiyini sübut edir. "Saintech"in tələb etdiyi kompensasiya 40 milyon dollardır. 2023-cü ilin yanvar ayının sonunda Arbitraj Məhkəməsinin Daimi Palatası (ARM) "Amulsar Investor Venture" MMC-nin Ermənistan hökumətinə qarşı qaldırdığı iddia ilə bağlı erməni tərəfini məlumatlandırıb. Bu şirkət erməni dövlətini öz vəzifəsini yerinə yetirməməsi və "Lydian International LTD" şirkətinin işinə mane olmağa yönəlmiş addımların qarşısını almaması ilə bağlı hərəkətləri, daha doğrusu, hərəkətsizliyi ilə mübahisə edir. "Lydian International LTD" şirkəti 2020-ci ilə qədər "Lidian Armenian LTD"nin səhmlərinin 100 faizinə sahib olub. Amma iyul ayında şirkət bütün səhmlərindən məhrum edilib. Məlum olduğu kimi, məhz bu şirkət Vayots Dzor bölgəsinin Amulsar şəhərinin qızıl tərkibli kvarsit mədənində faydalı qazıntıların çıxarılmasına icazəni almış və hazırda da sahibidir.

## HÖKUMƏTİN GİZLİ SÖVDƏLƏŞMƏSİ

Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra, 2018-ci ilin iyununda Amulsarda qızıl tərkibli kvarsit mədəninə gedən yollar fəallar tərəfindən bağlanıb və beləliklə də şirkət mədənin istismarı üçün bütün imkanlardan məhrum edilib. Həmin ilin iyulunda Ekologiya Nazirliyinin məsul şəxsləri ətraf mühitin çirklənməsi ilə bağlı məlumatların qəsdən gizlədilməsi səbəbindən şirkətə qarşı cinayət işi başlandığını elan ediblər. Cinayət işinin istintaqı üç il davam edib, amma polis mədənə gedən yolların bağlanmasının aradan qaldırılması tələblərinə məhəl qoymayıb.

Amulsarda qızıl tərkibli kvarsit mədəninin istismarının mümkünsüzlüyü nəticəsində "Lydian International LTD" şirkəti müflis olub və 2020-ci ilin sentyabrında məhkəmə qərarı ilə ləğvetmə prosesi başlayıb. Hökumət isə şirkətin 12.5 faiz səhmlərinə sahib olub. Ermənistan hökuməti şirkətin səhmlərini hədiyyə olaraq



aldıqdan sonra hər kəsdə əsaslı şübhələr var idi ki, şirkətin Kanada birjasından çıxarılması, ləğv edilməsi və səhmdarların əlindən alınmasında gizli məqsədlər var. Şirkətin məruz qaldığı ziyan 150 milyon dollar hesablanıb.

### "WALNORT FİNANCE LİMİTED MMC"

Zəngəzur mis-molibden kombinatının səhmdarlarından biri "Walnort Finance Limited MMC" də hüquqlarının müntəzəm olaraq pozulması ilə bağlı məhkəməyə müraciət edib. 2021-ci ilin sentyabrın 30-da məlum oldu ki, kombinatın Kremlə yaxın rusiyalı milyarder Roman Trotsenkonun simasında yeni səhmdarı var. Romanın başqa bir şirkəti kombinatın səhmlərinin 60 faizini alıb və ümumi kapitalın 15 faizini Ermənistan hökumətinə bağışlayıb. Bu barədə bu günə qədər heç bir rəsmi izahat verilməyib. Səbəb və şərtlər məlum deyil. İsveçrə şirkətindən əvvəl səhm paketi "Zəngəzur Mining" şirkətində olub və 2021-ci ilin avqust ayında kombinatın səhmlərinin satışında ona üstünlük verilməsi ilə bağlı məhkəmə iddiası qaldırıb. Nəzərə almaq lazımdır ki, Paşinyan 2021-ci ildə keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı təşviqat kampaniyasında bir sıra bəyanatlar səsləndirib. Bu bəyanatlarda sətiraltı olaraq, hökumətin bu işə müdaxilə edəcəyi bildirilmişdi. Məsələ burasındadır ki, "Zəngəzur Mining" şirkətinin avqustda qaldırdığı iddia təmin edilib. Amma 30 sentyabrda yerli məhkəmə iclas çağırıb və iclasdan sonra məlum olub ki, səhmlərin yeni sahibi yuxarıda adı qeyd edilən Roman adlı rusiyalı iş adamıdır. Maraqlıdır ki, sövdələşmə gecə saatlarında rəsmiləşdirilib və bu da İsveçrə şirkətinin beynəlxalq məhkəmədə iddia qaldırmasına əsaslı səbəb olub.

Hər üç şirkətin məhkəmə iddiasından məlum olur ki, Ermənistanda sahibkarların hüquqları pozulub, qeyri-qanuni hərəkətlər nəticəsində investorlar əmlaklarından məhrum ediliblər. Paşinyan hökuməti də bu reketçiliklə pay sahibi olub. Əgər Ermənistan hökuməti hər üç məhkəmə prosesində uduzsa, söhbət bir neçə yüz milyon dollar təzminatdan gedəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# FRANSANIN RİYAKAR VƏ QƏRƏZLİ SİYASƏTİ



**Fransa prezidentinin Ukraynada gedən müharibə ilə bağlı söylədikləri dünyanı bir-birinə vurub. Onun NATO qoşunlarının Kiyevə yeridilməsi barədə bəyanatı qurum daxilində problemlərə yol açıb. Rusiya isə öz növbəsində Makronu hədələyir və tarixi xatırladır.**



AZƏR NURİYEV

Fransa Emmanuel Makronun idarəçiliyinin fəsadlarını yaşayır. Xarici və daxili siyasətdə uğursuzluqlar davam edir. Ölkədaxili gərginlik o həddə çatıb ki, əksər siyasi qüvvələr hakimiyyəti yarıtmaz siyasət yürütməkdə günahlandırır, etirazlar artır. İndi isə Avropa Makronun Ukraynaya dair "yeni planları" ilə çalxalanır.

### "MAKRON NAPOLEONUN AQİBƏTİNİ UNUTMASIN!"

Fransa prezidentinin Ukraynada gedən müharibə ilə bağlı söylədikləri dünyanı bir-birinə vurub. Onun NATO qoşunlarının Kiyevə yeridilməsi barədə bəyanatı qurum daxilində problemlərə yol açıb. Rusiya isə öz növbəsində Makronu hədələyir və tarixi xatırladır. "Fransa prezidentinə xatırlatmaq lazımdır ki, Napoleonun süqutu Rusiyaya hücumdan sonra başlayıb", - deyə rusiyalı senator Aleksey Puşkov deyib. O, Fransa prezidentinə tarix dərsi də keçib: "Emmanuel Makronun bundan xəbəri var? Yoxsa onun üçün tarix Yelisey sarayına gəlişi ilə başladı? Ona xatırlatmaq lazımdır: Napoleonun süqutu onun 530-550 min nəfərlik ordusunun 1812-ci ildə Rusiyaya daxil olması ilə başladı. Sonra Napoleonun demək olar ki, bütün ordusu məhv edildi. Sahillərində düşmənin ağır itki verdiyi Berezina çayının adı isə fransız dilində tam bir fəlakətin təcəssümü olaraq təşəkkül tapdı".

Ekspertlər hesab edirlər ki, Avropa İttifaqı (Aİ) ölkələrindən Ukraynaya qoşun göndərilməsi ehtimalından danışan Makron hakimiyyəti əlində saxlamaq istədiyi üçün belə açıqlama verib.

Yeri gəlmişkən, Makronun Ukraynaya getməyə hazır olan hərbi kontingentin yaradılmasının mümkünlüyü ilə bağlı açıqlamaları Qərbdə qızğın müzakirələrə səbəb olub. Onun bu ideyasının Polşa və Baltikyanı ölkələr tərəfindən dəstəkləndiyi, bəzi ölkələr, xüsusən də Almaniya tərəfindən bəyənilmədiyi qeyd edilir. Makron vurğulayır ki, Rusiya Fransanın rəqibidir və əgər Putin Ukraynaya qarşı müharibədə uğur qazanarsa, "fransızların həyatı dəyişəcək. Avropada artıq təhlükəsizlik olmayacaq". Bundan əlavə, Fransa prezidenti vəziyyətin pisləşəcəyi təqdirdə Ukraynaya kömək etmək üçün Aİ-nin yeni təşəbbüslərini irəli sürür. Makron qeyd edir ki, döyüş meydanındakı vəziyyət tələb edərsə, Avropa əlavə tədbirlər görməyə hazır olacaq.

## PARİS UKRAYNAYA KÖHNƏLMİŞ SİLAHLAR VERƏCƏK

Bu bəyanatların ardından Paris Kiyevə yeni hərbi yardım paketini açıqlayıb. Yeni yardım paketi çərçivəsində Ukraynaya hava hücumundan müdafiə üçün yüzlərlə zirehli texnika və "Aster" raketləri təhvil veriləcək. "Le Monde" xəbər verir ki, bu barədə Fransanın müdafiə naziri Sebastyan Lekornu bildirib. Onun sözlərinə görə, Fransa Ukrayna Silahlı Qüvvələrinə hələ də yaxşı vəziyyətdə olan köhnə zirehli texnikaları da təhvil verəcək. S.Lekornu onu da bildirib ki, Fransa Ukraynanın hava hücumundan müdafiəsini gücləndirməyə kömək etmək istəyir, ona görə də İtaliya tərəfindən əvvəllər transfer edilmiş SAMP/T hava hücumundan müdafiə sistemi üçün 30 "Aster" zenit-raket kompleksinin yeni partiyasını hazırlayır. Bununla belə, hərbi ekspertlər Ukraynaya verilməsi nəzərdə tutulan yüzlərlə hərbi texnikanın 1970-ci illərin istehsalı olduğu, real döyüş şəraitində heç bir nəticə verməyəcəyi qənaətindədirlər.

## MAKRONU "UŞAQ KRAL" ADLANDIRDI

Ölkənin keçmiş müdafiə naziri və Normandiya Regional Şurasının hazırkı prezidenti Herve Morin "Le Point"a müsahibəsində Makronu tənqid edib. "Bunlar uşaq kralın hakimiyyətə gələndən bəri müntəzəm olaraq etdiyi təxribatlardır! Bu mövzunun dövlət və hökumət başçıları arasında konfidensial diplomatik müzakirələrdə ortaya çıxması təbiidir. Ukraynalılar bizim hər şeydən əvvəl etibarlı müttəfiq olmağımızı istəyirlər. Prezident özünü böyük sövdələşmələrin müəllifi kimi göstərməkdənsə, Ukraynanı özünü müdafiə etmək üçün lazım olan hərbi texnika ilə təmin etməlidir", - deyə Morin bildirib.

### ALMANİYA FRANSA LİDERLİYİNƏ QARŞI

Fransanın hədəfinə çatmaq uğrunda mübarizəsinə qarşı çıxan əsas dövlət əzəli və tarixi rəqibi Almaniyadır. Berlin Parisin radikal təşəbbüslərindən razı deyil. Avropanı vahid siyasi qüvvəyə çevirmək barədə Fransanın təkliflərinə əvvəllər məhəl qoymayan Berlin indi fərqli düşünür. Çünki iqtisadi və siyasi vəziyyət indi dəyişib və almanlar artıq Makronun ambisiyalarına alət olmaq istəmirlər. Beləliklə, Beşinci Respublikanın Makronun yarıtmazlığı nəticəsində uğursuzluqları səngimək bilmir. Məhz onun hakimiyyəti illəri Fransanın müasir tarixinə biabırçı illər kimi düşəcək. Çıxış yolu Fransanın riyakar, qərəzli və birtərəfli siyasətindən əl çəkməsidir. Əks təqdirdə, bu ölkəni daha ciddi fəlakətlər gözləyir.

# NƏZARƏTSİZ NÖVBƏLƏR, DONAN SİSTEMLƏR...

Xəstəxanalarda icbari tibbi sığortanın tətbiqindən sonra yaranan növbələr ciddi narazılıq doğurur. Uzun müddət keçməsinə baxmayaraq, hələ də tibb müəssisələrində onlayn növbə rejimi istifadə edilmir. Hətta sistemdə də tez-tez donmalar baş verir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



### NÖVBƏDƏ GÖZLƏYƏN PASİYENTLƏR QƏBUL EDİLİR

"İcbari tibbi sığortadan yararlanmaq və məni narahat edən ürək ağrılarının dərdini bilmək üçün xəstəxanaya müraciət etdim. İlk gün günorta gəldiyim üçün mənə məsləhət gördülər ki, artıq gecdir, gözləməyim. İkinci gün səhər saatlarından gəldim, növbə götürdüm. Günortaya yaxın, nömrəmin çatmasına iki sıra qalmış, dedilər ki, digər insanlar gözləməsin, limit doldu, həkim qəbul etməyəcək. O ağrı ilə kor-peşman evə qayıtdım. Məcbur olub, müayinə üçün özəl klinikaya müraciət etdim. Bu növbələr xəstəni daha çox gərginləşdirir, nəinki sağaltmaq".

Bu sözlər müayinə olunmaq üçün xəstəxanaya müraciət edən Rəhimə Muradovaya aiddir.

Hamıya məlumdur ki, icbari tibbi sığortanın tətbiqindən sonra dövlət tibb müəssisələrinə axın artıb. Rəhimə xanım kimi tənzimlənə bilməyən növbələrdən bezən, həkimin qəbuluna düşə bilmək üçün gün ağarmamış tibb müəssisəsinin qapısında gözləyən minlərlə pasiyent var. Hələ qapıda gözləyənlərin qapı açılarkən mühafizəçilərlə davası, bir-biri ilə münaqişələri lap acınacaqlıdır. Tələbat çox, qeydiyyat şöbələrində işçi sayı az... Bunlar azmış kimi sistem də tez-tez donur.

Bəs vətəndaşların xidmətdən rahat istifadəsi üçün qeydiyyat problemi necə həll edilməlidir? Nə üçün onlayn qeydiyyat sistemi tam tətbiq olunmur?

#### TƏKMİLLƏŞDİRİLMƏ İŞLƏRİ APARILANDA SİSTEM İŞLƏMİR

Məsələ ilə bağlı TƏBİB-dən "Kaspi" qəzetinə bildirildi ki, xəstəxana məlumatlarının idarəetmə sistemi vətəndaşlara vaxtında, keyfiyyətli və təhlükəsiz xidmət göstərmək üçün bir sıra dövlət qurumları ilə inteqrasiyalı şəkildə fəaliyyət göstərir. Proqram təminatını uğurla tətbiq edə bilmək üçün vaxtaşırı təkmilləşdirilmə işlərinə zərurət yaranır. Digər dövlət qurumlarının sistemində təkmilləşmə işləri aparıldığı zaman bir müddətlik sözügedən sistemdə də ləngimələr qeydə alınır.

### Fasiləsizlik tam təmin olunacaq

Qurumdan daxil olan məlumata görə, TƏBİB-in tabeliyindəki "Rəqəmsal Tibbi Həllər" MMC tərəfindən xidmət əlçatanlığını fasiləsiz təmin edə bilmək üçün hazırda "offlayn" mühitdə işləyə biləcək alternativ sistem yaradılır. Test rejimində pilot olaraq bir neçə tibb müəssisəsində sınaqdan keçirildikdən sonra sistemin zərurət yarandığı hallar üzrə tabeli tibb müəssisələrində tətbiqi planlaşdırılır. Bununla da xəstəxana məlumatlarının idarəedilməsində "onlayn" mühitdə yarana biləcək texniki ləngimələr zamanı fasiləsizlik tam təmin olunacaq.

Həkimin xəstə qəbul etməklə bağlı limitinin dolması barədə şikayətlər də az deyil. Maraqlıdır, həkimin günlük xəstə qəbulu nə qədər olmalıdır? Ümumiyyətlə, limit nə qədərdir?

TƏBİB deyir ki, qurumun tabeliyində olan tibb müəssisələrində həkimlərin gündəlik iş saatı qanunvericiliyin tələblərinə əsasən, altı saat müəyyən olunub. Yəni həkimlər iş gününün sonuna kimi limit olmadan növbəlilik prinsipi ilə pasiyentləri qəbulunu və müayinəsini həyata keçirirlər: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti tərəfindən təsdiq edilmiş qaydaya əsasən, həkimlərin əməkhaqqı tərkibi - vəzifə (tarif) maaşından, həvəsləndirici əlavələr, əmək şəraitinə görə ödənilən əlavələrdən və Əmək Məcəlləsində, normativ hüquqi aktlarda, habelə Agentliyin qərar və əmrlərində nəzərdə tutulmuş digər ödənişlərdən ibarətdir. Qaydaya əsasən, işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələr (bonus) təsdiq olunmuş iş günü həddinə əsasən hesablanır".

Bəzi ixtisas sahələri üzrə çalışan həkimlərə müayinələr üzrə işin nəticəsinə görə həvəsləndirici əlavələrin ödənilməsi həddi 35 nəfər pasiyent sayı olaraq müəyyən edilib: "Ambulator şəraitdə terapiya və pediatriya ixtisasları, rentgen, mamoqrafiya və flüoqrafiya müayinəsi üzrə çalışan həkimlərə işin nəticəsinə görə həvəsləndirici əlavələrin ödənilməsi həddi iş günü üzrə 35 nəfər sığortaolunan olmaqla müəyyən edilib. Tibbi müayinənin növündən və xüsusiyyətindən asılı olaraq, işin nəticələrinə görə aylıq həvəsləndirici əlavələrin ödənilməsində iş günü üzrə hədd 15-35 pasiyent sayı arasında dəyişir. İşin nəticələrinə görə aylıq həvəsləndirici əlavələrin ödənilməsi üzrə günlük həddin bitməsindən asılı olmayaraq, iş gününün sonuna qədər növbədə gözləyən pasiyentlər qəbul edilir. Təcili tibbi yardıma ehtiyacı olan pasiyentlərin, şəhid ailə üzvləri və müharibə iştirakçılarının qəbulu və müayinəyə cəlb olunması növbədənkənar aparılır".

## VƏZİYYƏT GƏRGİNLƏŞİB

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli deyir ki, icbari tibbi sığortanın tətbiqi genişləndikdən sonra vəziyyət çox gərginləşib: "Sözsüz ki, İcbari Tibbi Sığorta Agentliyinin büdcəsi böyüdükcə xidmətlər zərfinə daxil olan xəstəliklərin sayı da artırıldı. Təbii olaraq, xəstələrin və pasiyentlərin tam hüquqi var ki, bu xidmətlərdən rahat şəkildə yararlansınlar. Lakin nəzarətsiz növbələr, donan sistemlər insanların narazılığına səbəb olur".

#### SİSTEM ÖZƏL XƏSTƏXANALAR ÜÇÜN DONUR?

Mütəxəssis deyir ki, problemin yaranmasının səbəbi mərkəzləşmiş xəstəxanaların sayının əhalinin sayı ilə adekvat olmamasıdır: "Orada çalışan işçilər birdən-birə bu axının qarşısında gücsüz vəziyyətə düşürlər. Məsələn, rayonlarda üç pəncərədə icbari tibbi sığortanın dörd əməkdaşı fəaliyyət göstərir. Amma birdən-birə bu pəncərə önündə dayananların sayı 100-ə çatır. Hətta kiçik həcmli böyük prosedur tələb etməyən hallarla bağlı da vətəndaşlar sığortadan yararlanmaq istəyirlər. Buna görə də xidmətdə ciddi problemlər, sistemdə donmalar olur. Bu problemlərlə yanaşı, biz onu da müşahidə edirik ki, icbari tibbi sığorta əməkdaşı deyir ki, sistem özəl xəstəxanalar üçün donub, amma dövlət xəstəxanalarına göndərişlər edə bilirik. Belə anormal situasiya ilə də rastlaşmaq mümkündür. Sistemin donmaması üçün daha güclü informasiya tutumuna malik olan sistemlər tətbiq edilməlidir".



İlqar Hüseynli

NƏĞMƏKAR ŞAİR, NASİR VƏ TƏRCÜMƏÇİ BABA VƏZİROĞLU: “ŞAİR OLMAQ ÜÇÜN GƏRƏK ÇOX OXUYASAN VƏ OXUDUĞUNU DƏRK EDƏSƏN”



# HƏR GÖRÜŞ BİR XATİRƏDİR









**Baba Vəziroğlu:** “Tanrıya çox şükür edirəm ki, bu günləri də gördük. Mən sovet dövründə Qarabağı qarış-qarış gəzmişəm. Amma həmişə özümü orada qonaq hiss etmişəm. Son üç il yarımda biz o torpaqlara ev sahibi kimi gedirik”.

“İllər öncə fikirləşirdim ki, televiziya, radio görüşləri, efirdə çıxışlar şairin öz oxucuları və auditoriyası ilə görüşünü əvəz edir. Amma son zamanlar düşünürəm ki, canlı görüşlər başqa aləmdir”.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə reallaşdırdığı “Məktəbdə” layihəsində qonaq olan nəğməkar şair, nasir və tərcüməçi Baba Vəziroğlu bu fikirləri 239 nömrəli tam orta məktəbdə şagirdlərlə görüşündə söylədi. Bakının əksər orta məktəblərində və bütün ali təhsil müəssisələrində görüşlərdə iştirak etdiyini deyən qonaq “belə görüşlərdə müsbət və mənfi reaksiyaları dərhal hiss edirsən. Müsbət reaksiyadan təbii ki, ilhama gəlirsən, mənən qidalanırsan. Mənfi reaksiyalar da normaldır. Çünki təbiətin yaratdığı rənglərin spektri çox zəngindir. Orada bütün hissiyyatlar var. Ona görə indi televiziya və radiolara dəvət aldığım görüşlərdən imtina etməyə cəsarət edirəm, amma canlı görüşlərdən qaça bilmirəm”, - deyə bildirdi.





HAZIRLADI
TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

## XOŞBƏXT MƏMLƏKƏTİN XOŞBƏXT ZİYALISI

B.Vəziroğlu son üç ildə tamam ayrı epoxada yaşadığımızı qeyd etdi: “Biz xoşbəxt insanlarıq. Həm sovet dövrünü, həm 30 illik zilləti yaşadıq. Tanrıya çox şükür edirəm ki, bu günləri də gördük. Mən sovet dövründə Qarabağı qarış-qarış gəzmişəm, Şuşada olmuşam. Amma həmişə özümü orada qonaq hiss etmişəm. Son üç il yarımda biz o torpaqlara ev sahibi kimi gedirik. Biz orada özümüz qonaq qarşılayırıq. Bu hissiyyatı yaşamaq hər bir vətəndaş, xüsusən hər bir ziyalı və qələm adamı üçün dünyanın ən böyük bəxtəvərliyidir. Mən artıq azad Şuşaya yeddi dəfə səfər etmişəm. O hissləri qələmə alıram, amma düşünürəm ki, o hissiyyatlar hələ çox-çox sonralar qələmə gələcək. Azad olmuş ərazilərə daxil olanda, o ucsuz-bucaqsız çəmənlikləri, şəlalələri, dağları görüb “məgər bu boyda böyük bir dünya 30 il bizdə olmayıb?” - deyə düşünürsən. Sonra “indi doğurdan bunlar hamısı böyük Vətənə qovuşmuş Azərbaycanın bir hissəsidir?”- deyə cavab axtarırsan. Zəfərin təməli üç il əvvəl yox, illər öncə qoyulmuşdu. Ulu öndər Heydər Əliyev “Əsrin müqaviləsi”ni imzalayanda o zəfərin təməli qoyulmuşdu. Məmləkətimizin keçilən yolu həm də hər bir fərdin keçdiyi yol deməkdir. Özümü xoşbəxt bir məmləkətin xoşbəxt bir ziyalısı hesab edirəm. Mənim ulu öndərlə də görüşlərim çox olub. Bu görüşlər bəstəkar Kamalla “Sən elə bir zirvəsən” mahnısının yaranmasına gətirib çıxardı. Bu, bir günlük və ya bir aylıq düşüncənin məhsulu deyildi. Bir liderə olan uzun illərin sevgisi, hörməti himnə çevrildi. Sonra Prezident İlham Əliyevlə Şuşada “Vaqif Poeziya günləri”ndə iştirak edəndə ilk dəfə “Cənab Ali Baş Komandan” şeirini oxudum. Bu şeir Zəfərdən qabaq yazılmışdı. Çünki bizdə Zəfərin mütləq bizimlə olacağına böyük inam vardı. Mən bu gün qalib məmləkətin ziyalısıyam”.

> *Məktəb kitabxanasında hansı kitabın harada olduğunu əzbər bilirdim. Daha sonra qonşu kəndlərin və rayonun kitabxanalarında olan bütün kitabları oxudum.*

## “ÖZÜMÜZ UYDURDUĞUMUZ NAĞILLARA İNANMAQ İSTƏMİŞİK”

B.Vəziroğlu məktəbdə qonaq olmasından məmnunluğunu ifadə etdi: “Mən hər gün özümü tələbə hiss edirəm. Hər gün öyrənirəm. Bəlkə yeni bir söz və ya məlumat eşitdim. Hətta balaca bağça uşaqlarına da müəllim kimi baxıram. Onlardan da nə isə öyrənməyə çalışıram”.

“İlk məktəbiniz haqqında yadınızda nə qalıb?”- deyə maraqlanan şagirdin sualı qonağı uşaqlıq illərinə qaytardı: “Bizim hamımız üçün bir “ilk” sözü var. İnsan “ilklər” haqqında həmişə nağıllar uydurur: ilk məktəb, ilk müəllim, ilk dost, ilk səfər, ilk sevgi, ilk məhəbbət məktubu... Bunların hamısı gözəl nağıllardır. İnsanı başqa canlılardan fərqləndirən elə budur. O “ilk”lərin reallıqla heç bir əlaqəsi yoxdur. Mən hamını düşündürən “ilk məhəbbət” haqqında yazmışam. Qeyd etmişəm ki, “ilk məhəbbət” deyəndə gözümüzün önünə reallıqla əlaqəsi olan bir mənzərə gəlmir. Amma “ilk məhəbbət unudulmur” deyə ömür boyu ondan yazırıq, onu xatırladırıq. Mən ilk məhəbbət deyəndə İsmayıllı rayonunun Mollaisaqlı kəndindəki uçuq-sökük məktəbimizi, darısqal sinif otağımızı xatırlayıram. İlin on ayı qış olurdu. Sinifdə odun sobası qalanırdı, uşaqlar da soyuqdan dona-dona məktəbə gəlirdilər. İlk məhəbbət deyəndə qarşımdakı partada bir qızın şaxtadan çatlamış, mürəkkəbə bulaşmış qırmızı əllərini görürəm. Heç onun siması xəyalıma gəlmir. Hətta mənə elə gəlir ki, “İlk məhəbbət” deyilən naməni də o barmaqlar yazıb və “Ana dili” kitabının arasına qoyaraq guya mənə verib. Əslində o məktub varsa da orada sevgiyə aid  heç nə yoxdur: “Dünən qoyunlarınız itmişdi, tapıldımı?”, “atan sənə acıqlandımı?” və s . kimi sözlər vardı. Amma biz bunu nağıllaşdırmışıq. Və nə yaxşı ki, nağıllaşdırmışıq. Nə yaxşı ki, özümüz uydurduğumuz nağıllara inanmaq istəmişik. Onda həyat maraqlı və gözəl olur. Yoxsa, robot kimi yaşa, heç bir nağıla inanma, yalnız gündəlik qayğılarla məşğul ol - bu, insan həyatı deyil”. Şair ilk şeirlərini də məktəbə həsr etdiyini dedi: “Bizim məktəb dünyanın ən gözəl məktəbidir. Bizim kənd dünyanın ən böyük və gözəl kəndidir. İlk müəllimim dünyanın bütün akademiklərindən daha biliklidir, daha müdrikdir. Biz belə düşünürdük və buna şeirlər yazırdıq. Nə yaxşı ki, o zaman belə düşünmüşük, onları belə müqəddəsləşdirmişik. Bu gün biz keçmişə qayıdanda o məktəb, o müəllimlər üçün darıxmırıq ki... Biz ömrümüzün o çağı üçün darıxırıq: dünyaya belə heyrətlə baxmışıq, hər şeyin gözəl olacağına inanmışıq. Bu inam bizi yaşadıb. Təəssüf ki, o inam hissi yavaş-yavaş azalıb.

Bir gün o ucqar kənd yolundan, bir süzülmüş köynəklə “alabaş” avtobusla, daha sonra xeyli piyada yol gəlib asfalt yola çıxdım. Ondan sonra Bakıda institutda oxuyan, Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu, Bolqarıstanda Ədəbiyyat və ali tərcümə kurslarını bitirən adamam. Amma harada olsaq köhnə şeylərdən bəhrələnməliyik. Bu mənada köhnə məktəbim mənim üçün dünyanın əbədi nağıllarından biridir. Dünyanın ən müasir məktəblərinə gedirəm, amma o məktəb həmişə gözümün qabağındadır. Çünki həyat yolumun başlanğıcıdır”.

> *Nə yaxşı ki, özümüz uydurduğumuz nağıllara inanmaq istəmişik. Onda həyat maraqlı və gözəl olur. Yoxsa, robot kimi yaşa, heç bir nağıla inanma, yalnız gündəlik qayğılarla məşğul ol. Bu, insan həyatı deyil.*

## “HƏR BİR AZƏRBAYCAN ƏSGƏRİ KİMİ MƏN DƏ...”

“Qarabağ zəfəri, azad Şuşa bir çox ədəbiyyat adamları üçün ilham qaynağı olub. Bəs sizin yaradıcılığınız üçün bu mövzunun hansı əhəmiyyəti var?” - deyə auditoriyadan ünvanlanan sualı qonaq “bu artıq yaradıcılıq deyil, həyat tərzimizdir”, - deyə cavablandırdı: “Ola bilər, bu gün başqa bir şeir yazıram, amma başımda o havadır. Hamımız o ovqatayıq. Hiss olunur ki, bu, qalib bir ölkə insanının yazdığı əsərdir. Şükür ki, o qələbəni özümüz qazandıq. Bunu bayram etməyə haqqımız var. Mən hər bir vətəndaş kimi 44 günlük müharibə zamanı Vətənə öz töhfəmi vermişəm. O vaxt 30-dan çox əsər yazdım və demək olar ki, onların hamısı mahnıya çevrildi. Bu gün özümü ona görə bir qədər rahat hiss edirəm ki, hər bir Azərbaycan əsgəri kimi mən də o böyük Zəfərə kiçik də olsa öz töhfəmi verə bildim”.

“Böyüyən nəsildə vətənpərvərlik hissini təbliğ etmək üçün yalnız ədəbi əsərlər kifayətdirmi?” - deyə soruşan şagirdin sualına B.Vəziroğlu ətraflı cavab verdi: “İncəsənətin növləri çoxdur. Kinonun, musiqinin də ədəbiyyat qədər rolu var. Bəşər yaranandan sənət yaranıb. Bir var birinə “Mən səni sevirəm” sözünü dillə deyəsən, bunun effekti az olur. Bir də var, bunu poeziyanın gücü ilə deyəsən. Bu etiraf daha təsirlidir. Burada sənətin gücü var. Bu mənada bədii ədəbiyyat sənətindən və peşəsindən asılı olmayaraq, hər adamın stolüstü kitabı olmalıdır”.

**Fotolar:** Rüfət Mikayılov-Global Media Group

## “KİTABXANALARDA OLAN BÜTÜN KİTABLARI OXUDUM”

“Kitabla nə vaxtdan dostluq edirsiniz? Bizə hansı kitabları oxumağı məsləhət görürsünüz?” - deyə məktəblilərdən biri maraqlandı: “Mən birinci sinfə qədər artıq yazıb oxuyurdum. Birinci sinifdə Viktor Hüqonun “Səfillər”ini oxumuşdum. Sonra mütaliə mənim üçün vərdişə çevrildi. Məktəb kitabxanasında hansı kitabın harada olduğunu əzbər bilirdim. Daha sonra qonşu kəndlərin və rayonun kitabxanalarında olan bütün kitabları oxudum. Bir gün kitabxanaçı xəstələndi. Məktəbin direktoru mənə - altıncı sinifdə oxuyan şagirdə kitabxananın rəhbərliyini həvalə etdi. Yeddinci sinifdə oxuyanda şeirlərim rayon qəzetində çap olundu. Rəhmətlik Musa Yaqub o qəzetdə işləyirdi. Mənə üç manat qonorar yazıldı. Rayon mərkəzinə gedib qonorarımı aldım və bir kisə kitab alıb çətinliklə kəndə gətirib çıxardım. Kitaba əbədi məhəbbətim bəlkə də o gündən başladı: əziyyətlə aldığım kitabları böyük əziyyətlə kəndə gətirdiyim gündən...”. B.Vəziroğlu mütaliənin insan həyatında böyük rol oynadığını bildirdi: “Siz də seçdiyiniz ixtisasdan asılı olmayaraq mütaliə edin. Bu, sizi formalaşdıracaq, dünyagörüşünüzü zənginləşdirəcək, hisslərinizi tərbiyə edəcək. Klassik ədəbiyyatdan Nizaminin, Cavidin, Cəlil Məmmədquluzadənin, Sabirin əsərlərini, müasir ədəbiyyatımızdan Ramiz Rövşənin, Anarın, Elçinin əsərlərini oxuyun. Dünyada Dostoyevski, Çexov, Tolstoy var. İnsan həyatının müəyyən dövründə əlinə nə keçirsə onu oxuyur, amma sonradan seçim yaranır. Sənin öz şairin, yazıçın, janrın olur”.

“Sizin üçün ağıl, yoxsa hisslər önəmlidir?” - deyə soruşan məktəblinin sualını şair çox maraqlı cavalandırdı: ”Lazım olsaydı Tanrı insana ağıl verməzdi. Ağıl insanı idarə edir. Bütün uğurlara ağlın gücü ilə nail olursan. Düzdür, bəzi insanda biri var, biri yox. İnsan vəziyyətə, şəraitə uyğun olaraq ikisi ilə də hərəkət etməlidir. Onda məqsədə çatmaq daha asan olar”.

## “ŞAİRLİYİ ARI EFFEKTİNƏ BƏNZƏDİRƏM”

“Çox adam şeir yazır. Amma hamı şair ola bilmir. Şairliyin xüsusi bir meyarı varmı?” - deyə auditoriyadan növbəti sual səsləndi: “Şairlik də bir azardır. Hamı bu azara tutulur, çoxu sağalsa da, bəziləri sağalmır. Mən həmişə deyirəm: şair doğulmaq asandır, tanrı sənə qabiliyyət verir, amma şair olmaq çətindir. Şair olmaq üçün gərək çox oxuyasan və oxuduğunu dərk edəsən. Gərək çoxlu gəzəsən, gördüyünü içindən keçirəsən. Bunlar bir gün əsərə çevrilir. Poeziyanın qidalandığı konkret mənbə yoxdur. Gördüyün bir mənzərə səni sarsıdırsa, sənə toxunursa, poeziyaya çevrilir. Mən şairliyi arı effektinə bənzədirəm. Arı milyonlarla çiçəkdən bal yığıb onu nektara çevirdiyi kimi, şair də gördüklərini təxəyyülündən keçirib şeirə çevirir”.



Görüşdə məktəblilər şairin şeirlərini səsləndirdlər. “Hər görüş bir xatirədir” deyən Baba Vəziroğlu məktəbin kollektivi ilə sağollaşıb “mən heç bir görüşün sonunda “əlvida” demirəm, “hələlik” deyirəm” deyərək “Xatirədir” şeirini oxudu.

# AVTOBUSLAR ELEKTRİKLƏŞMƏ YOLUNDA




**2024-cü il Azərbaycanda nəqliyyat sektorunun elektrikləşmə ili kimi tarixə düşə bilər. İl ərzində bu istiqamətdə ciddi addımların atılması nəzərdə tutulur. İlkin addım kimi ölkəyə 100 yeni elektrik mühərrikli avtobusun gətirilməsi nəzərdən planlaşdırılır.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bakıda 100 yeni elektrikli avtobusun istismara verilməsi planlaşdırılır. Bunu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) İdarə Heyətinin sədri Anar Rzayev Bakıda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın təşkilatçılığı ilə keçirilən "Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar" mövzusunda konfransda bildirib. Sədrin sözlərinə görə, Bakıda avtobus parkı yenilənəcək.

Bəs avtobus parkının elektriklə işləyən avtobuslara sürətli keçidini nə zaman müşahidə edəcəyik? Ümumiyyətlə, bu, bizə maddi və ekoloji baxımdan nə verə bilər?

### ELEKTRİKLİ AVTOBUSLARIN ÜSTÜNLÜKLƏRİ NƏDİR?

İnsanların daim təmasda olduğu nəqliyyat vasitələrinin ətraf mühitə vurduğu zərər, ekologiyanı zəhərləyən qazlar həyat üçün ciddi təhlükə hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, karbon emissiyalarının 23 faizi nəqliyyat vasitələrindən qaynaqlanır. Bu zərəri azaltmaq üçün layihələr həyata keçirilir, nəqliyyat sistemi ciddi dəyişikliklərə məruz qalır. Son dövrlərdə emissiyaları azaltmaq və ictimai nəqliyyatın daha təmiz və səmərəli formasını təmin etmək üçün elektriklə çalışan avtobuslar getdikcə populyarlaşır. Bu avtobuslar şəhər və qəsəbələr üçün digərlərinə nisbətən daha münasibdir. Hazırda da bir çox ölkə elektrik avtobus parklarına böyük sərmayə qoyur. Çünki elektrikli avtobusların adi avtobuslarla müqayisədə ekoloji təmiz hava keyfiyyəti və aşağı texniki xidmət xərcləri kimi bir çox üstünlükləri var. Bundan əlavə, elektrikli avtobuslar həm sərnişinlər, həm də sürücülər üçün qabaqcıl təhlükəsizlik xüsusiyyətləri təklif edir.

### "BİZ ÖLKƏ OLARAQ ARTIQ BUNA HAZIRIQ"

Yol-nəqliyyat infrastrukturu üzrə ekspert Yasin Mustafayev "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, elektrik mühərriki ilə işləyən avtomobillər digərləri ilə müqayisədə 70-80 faiz daha qənaətcil olurlar: "Biz bunun vacibliyi ilə bağlı bir neçə platformada öz təkliflərimizi vermişik. Artıq elektrikli mühərrik vasitəsinə keçməyin dövrüdür. Bu, hazırda bizim ölkə üçün də real və kifayət qədər sərfəlidir. Emissiyaların, zəhərli qazların atmosferə göndərilməsinin və səs çirkliliyinin qarşısını almaq üçün hazırda mövcud avtobusların elektriklə işləyən avtobuslarla əvəzlənməsi olduqca vacib və faydalıdır. Ən əsası, biz ölkə olaraq artıq buna hazırıq".





Yasin Mustafayev

## "YENİ ALINAN AVTOBUSLARIN HAMISI ELEKTRİK MÜHƏRRİKLİ OLMALIDIR"



Mütəxəssis vurğulayır ki, yeni avtobusların alınması külli miqdarda vəsait tələb etdiyi üçün bu, mərhələli şəkildə həyata keçiriləcək: "Bakının Baş planında tramvay xətlərinin çəkilməsi nəzərdə tutulub. Hazırda bütün dünya elektromobillər, elektrik mühərrikli avtobuslardan istifadəyə keçir. Düzdür, trolleybus, tramvay şəbəkəsini genişləndirənlər də az deyil. Amma mən metro xətlərinin inkişaf etdirilməsinin və sürətli şəkildə elektrikli avtobuslara keçilməsinin tərəfdarıyam. Düzdür, tramvay da elektriklə işləyir, amma infrastrukturu yaratmaq, yenidən relsləri çəkmək, onu enerji ilə təmin etmək asan proses deyil. Eyni zamanda bilirik ki, tramvay da hərəkət etdiyi zaman az da olsa səs-küy yaradır. Bu səbəbdən elektrikli avtobusların alınması ilə bağlı addımları alqışlayıram. Gələcəkdə yeni alınan avtobusların hamısı elektrik mühərrikli olmalıdır".

### SİSTEM İCTİMAİ NƏQLİYYATDA GEDİŞ HAQQINA NECƏ TƏSİR EDƏCƏK?

Elektrikli avtomobillərdən danışdıqda, onların ətraf mühitə verdiyi faydalarla yanaşı, cibə də xüsusi faydasının olduğunu mütəxəssislər tez-tez vurğulayırlar. Maraqlıdır, ictimai nəqliyyatın qənaətcil olması istifadəçilərin ciblərinə necə təsir edəcək? Gedişhaqqı azala bilərmi?

Həmsöhbətimiz vurğulayır ki, bu avtobusların alınması külli miqdarda vəsait tələb edir. Yenisi alındıqca da, köhnə avtobuslar həmişə olduğu kimi bölgələrə, rayonlara göndəriləcək. İlk olaraq Bakının infrastrukturu yenilənir: "Yəni elektrikli avtobuslar ilk olaraq kütləvi şəkildə Bakıda fəaliyyət göstərəcək. Amma yeni sistemdə tətbiq olunacaq gediş haqqı ilə köhnə arasında ciddi fərq olacağını düşünmürəm. Düzdür, elektrikli avtobusların istismarı sərfəlidir. Biri yanacaq yandırır, digəri elektrik enerjisi ilə işləyir. Amma gediş haqqının aşağı salınmasından söhbət gedə bilməz. Çünki getdikcə dünyada da, bizdə də inflyasiya baş verir. Qiymətlərin aşağı düşməsinin şahidi olmamışıq, ictimai nəqliyyatda gediş haqqı da bu qəbildəndir".

## TƏTBİQ EDİLƏN PİLOT LAYİHƏ ÖZÜNÜ DOĞRULDUB

Nəqliyyat eksperti Eldəniz Cəfərov isə deyir ki, biz 2024-cü ili Azərbaycanda nəqliyyat sektorunun elektrikləşmə ili kimi qəbul etməliyik: "İctimai nəqliyyatda bu gün artıq iki pilot layihə həyata keçirilib və dövriyyəyə iki elektrik mühərrikli avtobus buraxılıb. Onlar özlərini doğrultdublar. Düşünürəm ki, il ərzində xətlərdə 100-150 elektrik mühərrikli avtobusun olması mümkündür və olacaq da".

Mütəxəssis vurğulayır ki, burada əsas məqsəd ekosistemin yaxşılaşdırılması, əhalinin sağlamlığı və atmosferə buraxılan karbon qazının miqdarının azaldılmasıdır. Digər əsas məqam isə bu sistemin iqtisadi cəhətdən də səmərəli olmasıdır.

Məlumat üçün bildirək ki, Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarına əsasən, paytaxtda müntəzəm marşrut xətləri üzrə istismarda olan avtobuslar sıxılmış təbii qaz (CNG) və elektrik mühərrikli nəqliyyat vasitələri ilə əvəz edilməlidir. Qeyd edilir ki, Avropada təmiz, alternativ yanacaqlı avtobusların genişmiqyaslı tətbiqini təşviq etmək üçün Təmiz Avtobus Bəyannaməsi (BUS2025) imzalanıb. Belə ki, dünya yollarında hərəkət edən avtobusların təqribən yarısının növbəti beş il ərzində tamamilə elektrik mühərrikli avtobuslara keçidi planlaşdırılır.



Eldəniz Cəfərov

PROBLEM İSTEHSALDA YOX, HAZIR MƏHSULUN SAXLANILMASINDADIR

# GÖZÜMÜZÜ YAŞARDAN İDXAL

**Azərbaycan Qazaxıstandan soğan idxal edəcək. Sahibkarlar məsələni qıtlıqla əlaqələndirirlər. Nazirlik isə soğan tədarükümüzdə heç bir çətinlik olmadığını bildirir.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Qazaxıstanın kənd təsərrüfatı naziri Aydarbek Saparov deyib ki, bu il ölkəsi Azərbaycan və Gürcüstanla imzalanmış müqavilə çərçivəsində 160 min ton soğan ixrac edəcək. Soğan ərzaq səbətimizdə ən vacib elementlərdəndir. Hansı ki, onun istehsalı ölkəmizdə geniş yayılıb. Ölkədə soğan əkin sahələrinin böyük hissəsi Qarabağ, Qazax-Tovuz, Mil-Muğan və Lənkəran-Astara iqtisadi rayonlarında yerləşir. Hətta mövsüm zamanı tonlarla məhsulun sahələrdə qaldığı, alıcısının olmadığı və ya dəyərindən ucuz qiymətə satıldığına dair xəbərlərin də şahidi oluruq. Maraqlıdır, soğanın bol olduğu ölkəyə nə üçün xaricdən məhsul idxal olunur? Öz məhsulumuz daxili tələbatımızı ödəyə bilmir?

**TƏMİNATIMIZ 100 FAİZİN ÜZƏRİNDƏDİR**

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən verilən məlumata görə, məhsulun istehsalında heç bir problem mövcud deyil: "Azərbaycan xarici ölkələrdən soğan idxal edir. Amma bu rəqəm çox azdır. Məsələn, keçən il 2380 ton məhsul idxal edilib. Amma 22 min ton da ixrac edilib. Əgər özümüzü təmin edə bilmiriksə, necə ixrac edirik? Dövlət ixrac etmir. Bu prosesi sahibkarlar həyata keçirir. Azərbaycanlı sahibkarlar ötən il Qazaxıstandan soğan idxal etməyib. Azərbaycanın soğanla təmin olunması 100 faiz üzərindədir. Çünki Azərbaycan özü bu məhsulun istehsalı ilə məşğuldur. 108 faiz istehsal göstəricisi də buna sübutdur".



Pərviz Heydərov

## İSTEHSALIMIZ 13 FAİZ ARTIB, AMMA...

İqtisadçı Pərviz Heydərovun sözlərinə görə, yerli soğanımız xarab olur, amma biz xaricdən gətiririk: "Öz ehtiyaclarımızı qarşılayacaq gücümüz olsa da, ixrac da həyata keçirilir. Məsələn, keçən il 310 min tondan çox soğan yığılıb. Bu rəqəm 2022-ci illə müqayisədə 13 faiz çoxdur.

Fermerlərimiz məhsulun əllərində qaldığını iddia edirlər. Bir tərəfdən də Qazaxıstandan soğan idxal edirik. Amma yerli istehsalçılar məhsullarını sata bilmir. Deyirlər ki, məhsul anbarlarda lazımi şəraitdə saxlanılmayıb və xarab olub, keyfiyyət baxımından satışa uyğun deyil. Səlahiyyətli şəxslər də bildirirlər ki, məhsulu düzgün saxlamamısınız, müvafiq anbarlarda soyuducuya yerləşdirməmisiniz".



**2023-cü ildə 310 min ton soğan yığılıb**

**YERLİ MƏHSULLARI SIXIŞDIRIB ÇIXARIR**

İqtisadçının fikrincə, əgər bu sahəni itirmək istəmiriksə, inkişaf etdirməliyik: "Bu sahəyə xüsusi diqqət olsaydı, soğan tədarükçülərinə əldə etdikləri məhsulları saxlamaq üçün müvafiq şərait yaradılardı. Həm əkin-biçin, həm də məhsulun saxlanılması ilə məşğul olmaq kəndli üçün çox çətindir. Yerli məhsul xarab olduğu üçün digər ölkələrdən soğan gətirilir. Qazaxıstandan gələn məhsulların keyfiyyəti aşağıdır, həmçinin qiyməti də ucuzdur. Xarici məhsul bazardan yerli malları sıxışdırıb çıxarır. Belə davam edərsə, artıq kəndlilər bu işlə məşğul olmaq istəməyəcəklər".

## ƏKİNÇİLƏRİ ZİYANA UĞRADAN İQLİM

Sahibkar Eldar Hüseynov fermerlərin yaşadıqlarına aydınlıq gətirib: "Qafqaz ərazisində ən çox soğan sahələri Azərbaycandadır. Soğanı Qətər, İran və digər ölkələrə ixrac edirdik. Amma son dörd il ərzində ixrac etməkdə çətinlik çəkirik. Çünki soğan tədarükü ilə bağlı problemlər yaşayırıq. Bunun da bir neçə səbəbi mövcuddur. Əkinçilərin əksəriyyəti xarici toxumlara üstünlük verirlər. Bu il payız aylarında soğan yığımı başlayan ərəfədə beş gün ardıcıl yağış yağdı. Yağışa qədər məhsullarını yığanlar onu saxlaya bildilər. Amma çatdırıb yığa bilməyən fermerlərin məhsulu torpağın altında qalıb ziyan oldu. Soğan elə bir məhsuldur ki, boğaz hissəsinə su dəydikdə içinə dolur. Bu zaman da avtomatik çürüməyə başlayır. Bəzi şəxslər bu islanmış sortları alıb, yığdılar ki, qışda baha satacaqlar, yaxud ixrac edəcəklər. Amma bu məhsullar da xarab oldu. Çünki hər bir soğanın saxlama müddəti və şəraiti var. Sahibkarların əksəriyyəti qısa müddətə xarab olan süfrə və 3-4 ay ömrü olan sortlar əkmişdi".

**ƏHALİ ÜÇÜN MÜSBƏT, SAHİBKAR ÜÇÜN MƏNFİ**

E.Hüseynovun sözlərinə görə, bu il Qazaxıstanda soğan bol və ucuz olduğu üçün yaranan qıtlıq bu şəkildə bərpa ediləcək: "Kimlər ki, 7-8 ay saxlama müddəti olan çeşidləri əkmişdi, həmin fermerlər üçün heç bir problem olmadı, məhsulu sata bildilər. Amma onların sayı da çox deyildi. Ona görə ölkəmizdə soğan tədarükündə qıtlıq yaşandı. Bu səbəbdən xarici ölkələrdən gətirməli olduq. Ən münasibi də Qazaxıstan idi. Çünki onlarda bu il soğan boldur. Çox olduğu üçün də ucuzdur. Bu səbəbdən soğanı Qazaxıstandan gətirəcəyik. Amma bu sahibkarlara mənfi təsir edəcək. Əkinçilərlə maarifləndirmə işi aparılmalıdır. Düzgün toxum əkilməsi öyrədilməli, anbar şəraiti qurulmalıdır. İdxalın əhali üçün bir müsbət cəhəti var ki, daxili bazarda qiymətləri aşağı salacaq".

# “PRİUS”LARIN DÖVRÜ BİTİR?




**Taksi fəaliyyətinin tənzimlənməsi ilə bağlı yeni qaydalar açıqlandıqdan sonra “prius”ların qiymətinin kəskin şəkildə ucuzlaşacağı qənaəti formalaşıb. Bəzi ekspertlər hesab edirlər ki, bu ucuzlaşma tədricən baş verəcək. Amma bunun əksini düşünənlər də var.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Yeni qaydalara əsasən, artıq yaşı 15 ildən yuxarı olan avtomobillər taksi kimi fəaliyyət göstərə bilməyəcək. Taksilərlə bağlı yeni qaydaların açıqlanmasından sonra bu sahədə ən çox istifadə edilən “prius”ların qiymətinin kəskin ucuzlaşacağı barədə xəbərlər yayılır. Həmçinin son günlərdə bu maşınların kütləvi şəkildə satışa çıxarıldığı ilə bağlı paylaşımlar artıb.

### SAHİBKARLAR PROBLEM YAŞAMAYACAQLAR

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərovun fikrincə, həmin maşınların qiymətlərinin kəskin enməsi halı mövcud deyil: “Prius”lar daha taksi fəaliyyətində istifadə olunmayacaq. Amma bu o demək deyil ki, bu maşınlar dövriyyədən ümumiyyətlə çıxarılır. Onlar ölkə daxilində yenə də istifadə olunacaqlar. Qiymətlərin kəskin enməsi sadəcə bir ajiotajdır. Reallıqda qiymətlərdə kəskin enmələr müşahidə edilmir. Məlum qərardan sonra sahibkarlar çalışırlar ki, istismarda olan nəqliyyat vasitələrini yeniləsinlər. Bu da normal addımdır”.

E.Cəfərov həmçinin bildirdi ki, kütləvi şəkildə satışların olması avtomobil bazarımıza ciddi təsir göstərməyəcək: “Çünki ölkəmizin avtomobil bazarı çox fəaldır. Qiymətlər də bazar tərəfindən tənzimlənir. Bazarımıza dünyanın müxtəlif ölkələrindən maşınlar gətirilir. Daxildə də avtomobil istehsal olunur. Ona görə sahibkarlar hər hansı problem yaşamayacaqlar”.

## DÖRD MİN MANATA “PRİUS”

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının direktoru Eyyub Əliyev isə əks fikirdədir: “Bəli, “prius”ları ucuz qiymətə satışa qoyublar. Qısa müddətdə həmin maşınların qiyməti 13-14 min manatdan 8-9 min manata düşüb. Hətta deyə bilərik ki, yeni qaydalar qüvvəyə mindikdə qiymət bəlkə də 4-5 min manat civarında olacaq. Çünki taksi şirkətləri parklarında əsasən standartlara cavab verən avtomobillər olmasını istəyirlər. Ona görə standartlara uyğun olmayan maşınlar satışa çıxarılacaq. Bazarda təklif çox olanda isə qiymətlər ucuzlaşır”.

### “YERLİ AVTOMOBİLLƏRƏ MARAQ ARTACAQ”

E.Əliyevin fikrincə, bundan sonra insanlar yerli istehsal olan maşınlara üstünlük verəcəklər: “Prius” dediyimiz avtomobillər xaricdə istifadəyə yararsız olduğu üçün utilizasiyaya düşüb. Müxtəlif işbazlar da bundan istifadə edərək onları kütləvi şəkildə ölkəmizə gətiriblər. Avtomobil parkımızın 83 faizi köhnə maşınlardan təşkil olunub. Yeni qaydalar avtomobil parkımızın daha tez yenilənməsinə faydalı olacaq. Ümid edirəm ki, bu qərardan sonra daha istifadəyə yararsız maşınları ölkəmizə gətirməzlər. Düşünürəm ki, gələcəkdə yeni avtomobillərə maraq artacaq. Burada daha çox yerli istehsal avtomobillərə tələbatın olacağını müşahidə edə bilərik. Yəni Naxçıvan, Neftçala, Hacıqabulda yığılan avtomobillərə tələbat artacaq”.



Eyyub Əliyev

## HƏM VƏTƏNDAŞLAR, HƏM DƏ İDXALÇILAR QAZANACAQLAR

Müsahibimizin sözlərinə görə, həm insanlarımız daha ucuz qiymətə avtomobil sahibi olacaq, həm də yerli şirkətlərin satışları artacaq: “Hazırda bu maşınların ucuz qiymətə satışa çıxarılması münasib qiymətə avtomobil əldə etmək istəyən şəxslər üçün sərfəlidir. Onlar daha ucuz qiymətə avtomobil sahibi olacaqlar. Avtomobil bazarımızda müxtəlif qiymətə “ikinci əl” nəqliyyat vasitələri mövcuddur. Xaricdən avtomobillərin rəsmi şəkildə idxalı ilə məşğul olan yerli şirkətlərimizin satışlarında da artımlar müşahidə ediləcək. Qaydalar avtomobil parkımızın yenilənməsi və ekoloji vəziyyətimizin daha da yaxşılaşması üçün zəmin hazırlayacaq”.

### İLKİN ÖDƏNİŞ FAİZLƏRİ AZALDILMALIDIR

E.Əliyev qeyd etdi ki, insanların yeni elektrikli avtomobillərə artan tələbini nəzərə alaraq müəyyən addımların atılmasına ehtiyac var: “Hazırda ekoloji avtomobillərə - elektrik və hibridlərə ilkin ödəniş 10 və 20 faiz nisbətindədir. Amma doqquz min manata avtomobilini satan şəxs həmin şərtlərə uyğun avtomobil tapa bilməyəcək. İnsanlar məcbur şəkildə yeni avtomobilləri kreditlə əldə edəcəklər. Kredit şərtlərində ilkin ödənişi 50 faiz yox, 15-20 faiz olsa, bu zaman avtomobilini satan şəxslər özlərini yeni maşınla təmin edə bilərlər”.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Laləə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 800
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# ÇİLÇIRAQ BAZARINDA VƏZİYYƏT NECƏDİR?

Əvvəllər əsasən, cehiz bazarlığında çilçıraqlar önəmli əşyalardan hesab olunurdu. Hamı ən yaxşısını, ən keyfiyyətlisini almağa çalışırdı. İndi vəziyyət dəyişib. LED işıqların meydana çıxması ilə çilçıraqlar bir çox insanlar tərəfindən keçmişin yadigarları hesab edilir.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Çilçıraq deyəndə ilk olaraq məşhur filmlərdən kadrlar yada düşür. Məsələn, "Qaynana" filmində Afətin Cənnət xalanın təsbehini çilçıraqdan asması, Cənnət xalanın "Ay bu lüstr qırıla düşə bunun təpəsinə, nə ürəyimdən tikan çıxardı..." replikası üzümüzü güldürür. Yaxud "İşdə məhəbbət macərası" filmində Lüdmila Prokofyevnanın Anatoli Novoselsevin gəlişi münasibətilə çilçırağı təmizləməsi səhnəsi çilçırağın evimizdə nə qədər əhəmiyyətli əşya olduğunu göstərir. Müasir dövrdə də evə qonaq gəlirsə, ilk olaraq çilçıraqlar parıldadılır, təmizlənir.

Təsadüfi deyil ki, çilçıraqlar evin zinət əşyaları hesab olunur. Çünki adı çəkiləndə, çoxlarının ağlına möhtəşəmlik, dəbdəbə, parıltı gəlir. Müasir dünyada isə dəbdəbəli çilçıraqları daha müasir, minimal əşyalar əvəz edir. Bəs evlərimizin ləl-cəvahiratlarının bazardakı vəziyyəti necədir?

### ÇİLÇIRAQ BAZARINDAKI QİYMƏTLƏR

Bir müddət öncə mətbuatda üç ölkədən çilçıraq tədarükünü bərpa etdiyimizlə bağlı xəbər yayılmışdı. Bu tədarük Azərbaycan çilçıraq bazarına necə təsir edib? Ən əsası, istehlakçı evini işıqlandırarkən nələrə diqqət etməlidir?

Əvvəlcə bazardakı qiymətlərlə maraqlandıq.

Bazardakı çilçıraqların qiymətləri iyirmi manatdan başlayır, iki, üç min manata qədər davam edir. Təbii ki, bazarda materialına, daş-qaşına görə, daha baha çilçıraqlar da mövcuddur. Satıcılar deyir ki, hazırda alıcılar daha çox modern üslublu, göstərişli olmayan çilçıraq almağa üstünlük verirlər, amma klassik çilçıraqların da alıcıları az deyil.

Çilçıraq tədarükü ilə məşğul olan şəxslərdən aldığımız məlumata görə, elektrik avadanlıqlarının, işıqlandırma sistemlərinin (lüstr, lampa, led sistemləri) 95 faizi idxaldan asılıdır. Məhz bu səbəbdən son vaxtlar bu bazarda da bahalaşma müşahidə olunur: "Bunun ilkin səbəbi logistika, karqo şirkətlərinin daşınma xərci və gömrük rüsumlarının artmasıdır. Ötən ilin ikinci yarısından çilçıraq bazarında bahalaşma var".

### ÇİLÇIRAĞI BAHALAŞDIRAN SƏBƏBLƏR NƏDİR?

Son vaxtlar türk saytlarından da çilçıraq alanları müşahidə edirik. Qiymətlər arasında ikiqat fərqlər olduğu üçün geyim məhsullarında olduğu kimi, bəzi insanlar ev əşyalarını, işıqlandırma sistemlərini də onlayn alırlar.

Çilçıraq satışı ilə məşğul olan Rəhman deyir ki, bu, geyim kimi kütləvi olmadığı üçün satışda ciddi fərq yoxdur: "Hələ ki, türk saytlarının bu sistemlərə elə də təsiri yoxdur. Çilçıraq elə əşyadır ki, müştəri yerində baxır, seçim edir. İşıq sistemlərinin gətirilməsi o qədər sərfəli deyil. Amma bazarda durğunluq var. Maraq əvvəlki səviyyədə deyil. Malın yerində bahalaşması qiymətə ciddi təsir etmir. Amma daşınma xərcləri, gömrük rüsumları, yer pulunun qalxması, bu ildən vergi yükünün artması kimi xərclər malın qiymətini artırır".



## Çilçıraq erası başa çatır?

Satıcı deyir ki, çilçıraq erası başa çatmaq üzrədir: "Əvvəllər əsasən, cehiz bazarlığında çilçıraqlar önəmli əşyalardan hesab olunurdu. Hamı ən yaxşısını, ən keyfiyyətlisini almağa çalışırdı. İndi vəziyyət dəyişib. LED işıqların meydana çıxması ilə çilçıraqlar bəzi insanlar tərəfindən keçmişin yadigarları hesab edilir. İndi müasir işıqlar, tam modern formalar dəbdədir. Gənclərin seçimi əsasən, sadəlikdən yana olur, yaşlı nəsil isə klassikaya meyl edir".

### EVİNİZİN MAKİYAJI

İşıqlandırmanı evin makiyajına da bənzədir mütəxəssislər. Hesab edilir ki, çilçıraqlar evinizin ümumi üslubunu dəyişdirməyin ən asan vasitələrindən biridir. Bəs biz istədiyimiz çilçırağı alıb, istənilən otağa quraşdıra bilərikmi?

Mütəxəssislər deyir ki, salon üçün çilçıraq seçəndə diqqət edilməli olan əsas məqam seçiminizin salonu nə dərəcədə doldurmasıdır. Çünki salonlar əsasən evin ən böyük sahələri olur. Buna görə işıqlandırma yaxşı olmalıdır. Mətbəx üçün çilçıraq seçərkən mətbəxdən necə istifadə edəcəyinizi nəzərə almalısınız. Mətbəxlər müasir dövrdə yalnız yemək bişirmək, yaxud tək qadınların istifadə etdiyi məkan deyil. Mətbəxlər buxar və rütubətin ən çox cəmləşdiyi yerlərdir. Bu səbəbdən çılpaq lampalar şəklində olan çilçıraqlar mətbəxə uyğun deyil. Uşaq otağında çilçıraq seçiminə gəldikdə isə, burada parlaq işıqlardan istifadə etmək düzgün deyil: "Gün işığını idarə edə biləcək şəkildə çilçıraq seçmək lazımdır. Uşaqlar, xüsusən də yeni doğulmuş körpələr günün çox hissəsini yatmaqla keçirdikləri üçün daha qaranlıq mühitə ehtiyac duyurlar. Bu səbəbdən uşaq otaqlarının bir az qaranlıq olması daha uyğundur".

## SƏHV ÇİLÇIRAQ SEÇİMİNİN FƏSADLARI NƏDİR?

Elektrik mütəxəssisi Azad Qeybullayev deyir ki, çilçıraq alınanda əsas diqqət edilməli olan məqam patronlarıdır: "Patronlar plastmas deyil, keramik (farfor) olmalıdır. Lampanı bağlayanda qızma verməməlidir. Qızma verdikdə, bir ay müddətində lampa yanır. Nəinki lampa, açıb baxanda görürsən ki, patronun yeri də yanıb. Çilçıraq tavana bağlananda diqqətli olmaq lazımdır. Bəzən ağır çilçırağı alçipandan asırlar. Belə olduqda müəyyən vaxtdan sonra çilçıraq insanların başına düşə, ciddi fəsadlar yarada bilər".

### ÇİLÇIRAQLAR EVDƏ YANĞINA SƏBƏB OLA BİLƏRMİ?

"Səhv bağlanan çilçıraq evdə yanğına səbəb ola bilərmi?" sualını verdikdə isə, mütəxəssis belə hadisələrlə dəfələrlə rastlaşdığını bildirir: "Məsələn, çilçırağı bağlayanda kabellərlə zərif davranılmır, dartılır, yaxud kabel yerinə düzgün yerləşdirilmir. Kabel çox dartılanda sıyrılır və korpusa toxunur. Müəyyən vaxtdan sonra yaranan qığılcımlar alışma verib, yanğına səbəb ola bilər".

Son vaxtlar LED işıqlardan istifadəyə gəldikdə isə, mütəxəssis vurğulayır ki, onlar daha təhlükəsizdir: "Ledlər müəyyən lampalara görə yaxşıdır. Çünki onlar istiliyi çox sevmir və qızma vermir. Adi lampalar öz ölçülərinə görə güclü qızır, patronları tez sıradan çıxarırdı. Ona görə də farfor patronlar istehsal edildi ki, qızmaya dözə bilsin".



Azad Qeybullayev

# RAYONLAR ƏLƏBAXAN OLMAYACAQLAR

Rayonlara dövlət büdcəsindən, yəni mərkəzləşdirilmiş büdcədən ayrılan vəsaitlərin həcmi azalıb. Büdcədən vəsait alan regionlardan yalnız biri - Yardımlı rayonu Yuxarı Qarabağ və Şərqi Zəngəzurdan kənardadır. Digərləri işğaldan azad olunmuş ərazilərimizdə yerləşən rayonlardır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2024-cü ildə Azərbaycanın şəhər və rayonlarından 58-i xərclərini dövlət büdcəsindən maliyyə yardımı (dotasiya) almadan öz gəlirləri hesabına təmin edəcək. Bu, Maliyyə Nazirliyinin 2024-cü ilin dövlət və icmal büdcələri üzrə layihələrində əksini tapıb. Bu il qalan yeddi rayona yerli gəlir və xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən 9,3 milyon manat maliyyə yardımı ayrılacaq ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə 3 milyon manat və ya 24 faiz az, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 22,8 milyon manat və ya 70,9 faiz azdır. Dotasiyaların azaldılması təcrübəsi illərdir davam edir. Bəs bu prosesin nəticəsi nə olacaq?

**DOTASİYA ALANLAR İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDIR**

Millət vəkili Vüqar Bayramov “Kaspi” qəzetinə açıqlamasında dedi ki, son illər dövlət büdcəsindən dotasiya alan rayonların sayı azalır: “2024-cü ildə də əvvəlki illə müqayisədə daha bir rayon dövlət büdcəsindən dotasiya almayacaq. 2022-ci ildə yardım alan rayonların sayı 2023-cü ilə nisbətən çox idi. Dotasiya alan rayonların azalmasının əsas səbəbi onların “özünü maliyyələşdirmə prinsipinə” keçidini təmin etməkdir. Məqsəd ondan ibarətdir ki, rayonlarda yerli mənbələrdən istifadə etməklə öz xərclərini qarşılama prinsipi həyata keçirilsin. Bu kontekstdə rayonlara dövlət büdcəsindən, yəni mərkəzləşdirilmiş büdcədən ayrılan vəsaitlərin həcmi azalır. Büdcədən vəsait alan regionlardan yalnız biri - Yardımlı rayonu Yuxarı Qarabağ və Şərqi Zəngəzurdan kənardadır. Digərləri işğaldan azad olunmuş ərazilərimizdə yerləşən rayonlardır”.

**QƏRAR RAYONLARIN İNKİŞAFINA MÜSBƏT TƏSİR GÖSTƏRƏCƏK**

V.Bayramov bildirdi ki, bu qərar rayonların inkişafına müsbət təsir göstərəcək: “Mərkəzləşdirilmiş dəstəyin azaldılması kontekstində həm də yerli mənbələrdən daha çox vəsaitin cəlb edilməsi üçün imkanların genişləndirilməsinə ehtiyac var. Bu, xüsusən rayonlarda investisiya mühitinin daha da yaxşılaşdırılması, sərmayə cəlbinin genişləndirilməsi və rayonlara daha çox investisiyanın yönəldilməsi hesabına yeni iş yerlərinin yaradılması, formalaşan əlavə dəyərin həcminin artırılmasına nail olmaq üçündür. Nəzərə alsaq ki, həm yerli, həm xarici investisiyalar rayonların inkişafı baxımından vacibdir. Ona görə investisiyanın cəlb edilməsi rayonlar üçün daha çox vəsaitin əldə edilməsi imkanları yarada bilər”.

Deputat düşünür ki, yerli maliyyə mənbələri ilə bağlı sistemli araşdırma aparılmalı, ona uyğun mərkəzləşdirilmiş vəsaitə olan ehtiyac müəyyənləşdirilməlidir. Çünki sosialiqtisadi məsələlərin əhəmiyyətli hissəsi mərkəzləşdirilmiş sosial proqramlar və layihələr vasitəsilə həyata keçirilir və ödənilir. Amma yerli mənbələrin də rolunun artırılması vacibdir.




BÜDCƏDƏN RAYONLARA AYRILAN VƏSAİT



Vüqar Bayramov

Foto: Firudin Salimov/Global Media Group

**RAYONLAR MALİYYƏ ASILILIĞINDAN AZAD OLMAĞI ÖYRƏNMƏLİDİRLƏR**

Bakı Ali Neft Məktəbinin Biznesin idarə edilməsi kafedrasının müdiri, iqtisadçı ekspert Altay İsmayılovun sözlərinə görə, burada əsas səbəb özünü maliyyələşdirmə imkanlarının ortaya çıxarılmasıdır: “Makro mənada prinsipial yanaşma regionların iqtisadi asılılığının və dövlət büdcəsinin maliyyə yükünün azaldılması istiqamətindədir. Yəni dövlət təşviq və tələb edir ki, artıq regionlar xərclərini gəlirləri hesabına ödəsinlər. İstənilən halda regionlar iqtisadi və maliyyə asılılığından azad olmalı və öz ayaqları üzərində durmağı öyrənməlidir. Bu yolla regionların sahib olduğu iqtisadi potensialdan istifadə təşviq olunaraq, resurslardan düzgün və səmərəli istifadə ön plana çıxır. Bu yanaşma regionlarda təşəbbüskarlıq ruhunun canlandırılmasına da səbəb olacaq. Çünki istənilən halda xərclərin ödənilməsi üçün gəlirlərin artırılmasına ehtiyac var. Bunun üçün isə yeni gəlir əldə etmək imkanlarının təşviq edilməsi, təşəbbüskarlıq ruhunun canlandırılması vacib amil halına gəlir”.

## YERLİ İCRA ORQANLARININ ÜZƏRİNƏ DÜŞƏN MƏSULİYYƏT ARTACAQ

A.İsmayılov qeyd etdi ki, bundan sonra yerli icra orqanlarının üzərinə düşən məsuliyyət artacaq: “Başqa bir məsələ, yerli icra orqanlarının effektiv fəaliyyətinin artırılmasıdır. Əgər yerli icra orqanları burada ciddi məsuliyyət hiss etməsələr, uzun müddət mərkəzdən asılılıq davam edəcək. Bu baxımdan, yerli icra orqanlarının gəlirlərin artırılması istiqamətində məqsədyönlü fəaliyyət planı olmalıdır. Regiona daxili və xarici investisiyanı cəlb etmək, investisiya mühitini yaxşılaşdırmaq onların qarşısında duran məsələlərdən bəziləridir. İnkişaf üçün təşəbbüskarlığın təşviq edilməsi və qurulmuş bizneslərin qorunması labüddür. Yəni icra orqanları bilməlidirlər ki, regionda mövcud olan bizneslər onların bu istiqamətdəki fəaliyyətlərində vacib amildir. Ona görə də biznes üçün şərait yaratmaq, onların işlərini asanlaşdırmaq böyük əhəmiyyət daşıyır”.

**İLK DÖVRDƏ MÜƏYYƏN ÇƏTİNLİKLƏR OLA BİLƏR**

Ekspertin fikrincə, bu yanaşmanın regionlara təsirini görmək üçün zaman lazımdır: “Qısamüddətli dövrdə bu tələb bəzi rayonlar üçün müəyyən çətinliklər yarada bilər. Çünki indiyə qədər olan asılılıq və vərdişlər var ki, bundan sonra müəyyən maliyyə resurslarından məhrum olmaq bəzi strukturların fəaliyyətlərində gərginlik yarada bilər. Ancaq istənilən halda, orta və uzunmüddətli dövr üçün bu yanaşmanın müsbət təsiri olacaq. Müəyyən bir dövr ərzində icra orqanları bir-birinin müsbət təcrübələrindən faydalanacaq və aralarında müsbət rəqabət formalaşacaq”.

A.İsmayılov bildirdi ki, dotasiya alan və almayan rayonların potensialları hər il nəzərə alınmalıdır: “Çünki dotasiya alan rayonların potensialları eyni deyil. Bu ilin və sonrakı illərin reallaşan büdcə rəqəmləri üzərində yenidən analizlər, hesablamalar aparılmalı, potensiallar diqqətə alınmalıdır”.



Altay İsmayılov

# ZAMANI QABAQLAYAN REJİSSOR



Sənət dostları, teatr və kinosevərlər Hüseynağa Atakişiyevi xoş xatirələrlə anırlar. O, yaddaşlarda yaxşı sənətkar, qayğıkeş rəhbər, istedadlı rejissor kimi qalıb.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycan teatr və kinosu onun simasında böyük bir aktyor və rejissoru, sənət fədaisini itirdi...” Sənət dostları, teatr və kinosevərlər Hüseynağa Atakişiyev haqqında söhbət düşəndə sevgi və hörmətlərini belə ifadə edirlər.

Görkəmli sənətkarın aprelin 9-da qeyd ediləcək xatirə günü ilə bağlı sənət dostlarının ürək sözlərinə “Sağ olun ki, onu yad edirsiniz...” minnətdarlığı da qarışır...

## “BİZİ BİRLƏŞDİRƏN ÇOX ŞEYLƏR VARDI...”

Xalq artisti, tanınmış rejissor Ramiz Həsənoğlunun Hüseynağa Atakişiyevlə tanışlığı Şəki Dram Teatrından başlayıb: “O , Şəki Teatrında işləyirdi, mən də işlərimlə əlaqədar oraya gedib-gəlirdim. 1979-cu ildə Ruhəngiz Qasımovanın “Yollar görüşəndə” əsərinin televiziya tamaşasını çəkmişdim. Hüseynağa tamaşanı çox bəyənmişdi. Səfərlərimin birində o tamaşa haqqında mənə çox yüksək fikirlər söylədi. Onun Şəkidə gördüyü işlər, Avropaya, hətta uzaq Kubaya qastrolları, qazandığı uğurlar yadımdadır. Sonra Hüseynağa Bakıya gəldi və burada işləməyə başladı”. R.Həsənoğlu həmkarının rejissorluq fəaliyyəti haqqında danışır: “Bizi birləşdirən çox şeylər vardı. Hüseynağa da Vaqif Səmədoğlu ilə əməkdaşlıq edirdi, mən də. 1988-ci ildə ilk dəfə Vaqifin “Yaşıl eynəkli adam” əsəri əsasında hazırladığım televiziya tamaşasının premyerası oldu. Yadımdadır ki, Vaqif o əsərdən sonra “mən iki rejissorla əməkdaşlıq edəndə rahatam. Biri Hüseynağadır, biri sənsən”, - dedi. Hüseynağanın rejissorluq təhsili yox idi. Aktyorluqdan gələn rejissor idi. Belə rejissorların çoxunun uğurlu fəaliyyəti olur”.

1993-cü ildə “Sabah” Yaradıcılıq Birliyi yarananda ilk teletamaşa kimi “Ac həriflər” çəkilib: “Hüseynağa o tamaşada aktyorlardan birinin rolunda Cahangir Novruzovla tərəf-müqabil idi. Mənə elə gəlir ki, onun rolu da yetərincə uğurlu bir iş idi. Sonra Hüseynağa “Sabah”da rejissor kimi fəaliyyət göstərdi. Bu studiyada Nazim Hikmətin əsərinə quruluş verdi. Daha sonra Vaqif Əsədov “Sabah”da onu aktyor kimi baş rola dəvət etdi. Nəhayət, 1998-ci ildə mən Hüseynağanı “Fatehlərin divanı”nda İldırım Bəyazid rolunda çəkdim. Onun rolu çox uğurlu alınmışdı. Tamaşada iki gözəl sənətkarı - Hüseynağa Atakişiyevlə Fuad Poladovu üzləşdirdim. Bəlkə də heç bir yerdə onların sənət görüşü olmayıb. Çox məmnunam ki, bu iki aktyoru həmin əsərdə görüşdürdüm. Hüseynağa mənim üçün əziz adam idi. Rəhmətlik anam Ətayə xanım da onun xətrini çox istəyirdi. Anamın teatrda son işi Hüseynağanın quruluş verdiyi Vaqif Səmədoğlunun “Yayda qartopu” adlı əsərində baş rol oldu”.

## “HAMIYA ATALIQ QAYĞISI GÖSTƏRİRDİ”

Əməkdar artist Sərvər Əliyev isə Hüseynağa Atakişiyevlə son nəfəsinə qədər bir yerdə çalışıb: “Təkcə rejissor-aktyor kimi birlikdə işləmədik, mən bir dostla, qayğıkeş insanla birgə çalışdım. Belə insan və teatr rəhbəri görməmişəm. O, teatr işçilərinin hamısının - işıqçıdan, qapıçıdan tutmuş aktyora qədər hər kəsin qayğısına qalırdı. Prezident təqaüdü alırdı. Pulu alan gün aktyorları ətrafına toplayır, onlara qonaqlıq verirdi. Kimin özünün və ya uşağının ad günü idisə, ona hədiyyə alırdı”. S.Əliyev mərhum rejissorun yüksək insani keyfiyyətini səciyyələndirən bir xatirəsini də danışır: “O vaxt çətin dövr idi. Aktyorlar dolanışıq üçün el şənliklərinə gedirdilər. Teatrda tamaşaların cədvəli əvvəlcədən asılırdı və aktyorlar tanış olub, həmin tarixdə toya getmirdilər. Aktyorlardan biri yaxınlaşıb “məni filan tarixdə toya çağırıblar, yaxşı da pul verirlər. Müəllimdən necə soruşaq, o tamaşanın bileti satılıb, yoxsa yox”, - deyə maraqlandı. Gedib vəziyyəti Hüseynağa müəllimə danışdım. Administratoru yanına çağırıb biletlərin satılıb-satılmaması ilə maraqlandı. Biləndə ki, hələ biletlər satılmayıb, “tamaşanın vaxtını dəyişin, filan aktyora toy düşüb, qoy getsin uşağının çörəkpulunu qazansın” dedi. Qastrol səfərlərinə gedəndə də hamıya atalıq qayğısı göstərirdi”. S.Əliyev deyir ki, Hüseynağa Atakişiyev teatrı həyatı qədər sevib, ömrünü bütünlüklə bu peşəyə həsr edib: “Rejissor mütləq zamanı qabaqlamalıdır”, - deyirdi. O, zamanı qabaqlayan rejissor idi. Bilirdi ki, “Hamlet”i, “Maqbet”i, “Aldanmış kəvakib”i və s. tamaşaları nə vaxt qoymaq lazımdır. Aktyorluğuna gəlincə, rejissor aktyor sənətini yaxşı bilməlidir ki, aktyorla işləyə bilsin. O, bunu çox gözəl bacarırdı. Hüseynağa müəllimin necə bir aktyor olduğunu bilmək üçünsə Üzeyir bəy rolunu oynadığı “Uzun ömrün akkordları” filminə, “Ac həriflər”ə, “Fatehlərin divanı”na baxmaq lazımdır. O, əvəzolunmaz aktyor idi”.



## “HAMI ONA “MÜƏLLİM” DEYƏ MÜRACİƏT EDİRDİ”

Aktrisa Hüsniyyə Əhmədova institutu bitirəndən Hüseynağa Atakişiyevin yaradıcısı və rəhbəri olduğu Azərbaycan Dövlət Gənclər Teatrında çalışıb. Hüseynağa Atakişiyev onun yaddaşında böyük hərflərlə yazılan MÜƏLLİM kimi qalıb: “İnstitutun üçüncü kursunda oxuyanda teatrda bir aktrisa xəstələnmişdi. Gülşad xanım məni dəvət etdi ki, həmin aktrisanın yerinə məşqsiz səhnəyə çıxım. Bu, mənim teatrda ilk işim olacaqdı. Çox həyəcanlı idim. Tamaşada canlı musiqi ifası da vardı. Rolumu oynadım və səhnədən çıxanda müəllimin səhnənin kənarında qaldığını gördüm. Mənə baxıb gülümsədi. Düşündüm ki, zəif oynamışam. Səhəri məni teatra çağırdılar, şəxsi işimə yazılmaqla təşəkkürnamə verildi. Bu, mənə çox böyük ümid verdi. Həmin il bir neçə tələbə Gənclər Teatrına təyinat aldıq”. H.Əhmədova müəllimini gənclərin hamisi kimi xatırlayır: “Onun böyük ürəyi vardı. Teatrda hamı ona “müəllim” deyə müraciət edirdi. Çünki o, özü bir məktəb idi. Özümü xoşbəxt sayıram ki, onun yaratdığı teatrda işləmişəm. Heyf ki, biz onu çox tez itirdik. Çoxlu arzuları vardı, yeni tamaşalar qurmaq istəyirdi. Azərbaycan teatr və kinosu onun simasında böyük bir sənət fədaisini itirdi”.



Ramiz Həsənoğlu



Hüsniyyə Əhmədova



Sərvər Əliyev

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
6 APREL ŞƏNBƏ 2024




Fotolar: Sabir Məmmədov /Global Media Group

# YENİ RƏHBƏRLİK, YENİ ÜMİDLƏR

**Rövşən Nəcəfin AFFA prezidenti kimi ilk mətbuat konfransında səsləndirdiyi fikirlər futbol ictimaiyyəti arasında kifayət qədər müsbət qarşılanıb. Yeni rəhbər uğur qazanmaq üçün zamana ehtiyac olduğunu, bütün futbol ictimaiyyətinin ortaq əməyi nəticəsində bunu bacara biləcəklərini qeyd edib.**

Bu həftə Azərbaycan futbol idarəçiliyində köklü dəyişikliklə yadda qaldı. AFFA-nın Hesabat-Seçki Konfransında rəhbər dəyişikliyi baş verdi və İcraiyyə Komitəsinin (İK) üzvləri yeniləndi. Eyni zamanda, assosiasiyaya yeni vitse-prezidentlər seçildi.

### 16 İLLİK FƏALİYYƏTİN SONU

Rövnəq Abdullayevin AFFA-nın prezidenti postundan gedəcəyi öncədən bəlli idi. Bir müddət əvvəl o, assosiasiya rəhbərliyinə namizəd olmayacağını açıqlamışdı. Beləliklə, Azərbaycan futbol idarəçiliyinə 16 il əvvəl – 2008-ci ildə gəlmiş Rövnəq Abdullayevin missiyası başa çatdı. Konfransda videomüraciətlə çıxış edən FIFA prezidenti Canni İnfantino onun uzun illər Azərbaycan futboluna uğurla xidmət etdiyini, yaxşı infrastrukturun qurulduğunu, ölkəmizdə AVRO-2020-nin qrup, 2019-cu ildə UEFA Kubokunun final matçlarının keçirildiyini xatırlatdı.

Rövnəq Abdullayevlə birgə İcraiyyə Komitəsinin bir neçə üzvü də fəaliyyətini başa vurdu. Buraya İsgəndər Cavadov, Kazbek Tuayev, Zaur Axundov, Rauf Əliyev, Vaqif Sadıqov, Firudin Qurbanov, Mahir Məmmədov və Elmar Məmmədyarov daxildirlər.

### DÖRDÜNCÜ PREZİDENT

AFFA-nın yeni prezidenti bu posta yeganə namizəd Rövşən Nəcəf seçildi. SOCAR rəhbəri tarixə AFFA-nın dördüncü prezidenti kimi düşdü. 1992-ci ildə yaradılan quruma bunadək Fuad Musayev (1992-2003), Ramiz Mirzəyev (2003-2007) və Rövnəq Abdullayev (2008-2024) rəhbərlik ediblər. 2007-2008-ci illərdə bu vəzifə müvəqqəti Elşad Nəsirova həvalə olunub.




## İCRAİYYƏ KOMİTƏSİ YENİ TƏRKİBDƏ

AFFA İcraiyyə Komitəsində "köhnə qvardiya"dan yalnız Fərid Mansurov, Elşad Nəsirov və Könül Mehdiyeva qaldılar. Doqquz üzv isə yenidir. Onlardan ikisi futbolçu keçmişi olan şəxslərdir: daha əvvəl "Neftçi"nin Müşahidə Şurasında yer alan Səməd Qurbanov və "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov. Qurban Qurbanov əvvəllər İcraiyyə Komitəsində təmsil olunsa da, sonradan oranı tərk etmişdi. Azarkeşlərin əksəriyyəti onun qayıdışını əsas müsbət məqamlardan biri kimi qeyd edirlər. Həmçinin "Sabah"ın prezidenti Maqsud Adıgözəlov, İTV-nin baş direktoru Balakişi Qasımov, AFFA-nın baş katibi Sərxan Hacıyev, "Silk Way Holding"in rəhbəri Zaur Axundov, Beynəlxalq Bankın İdarə Heyətinin sədr müavini Ülvi Mansurov, Heydər Əliyev adına Neft Emalı Zavodunun direktoru Xəyal Cəfərov və Elm və Təhsil Nazirliyinin Strateji planlaşdırma və icraya nəzarət şöbəsinin müdiri Leyla Xəlilova-Rzazadə bundan sonra Azərbaycan futbolunda ən əhəmiyyətli qərarları qəbul etməkdə səs hüququna malik olacaqlar.

İK-nın ilk iclasından sonra isə vitse-prezidentlərin kimliyi açıqlandı. Sərxan Hacıyev icraçı vitse-prezident, Elşad Nəsirov, Könül Mehtiyeva və Balakişi Qasımov isə vitse-prezidentlər təyin olundular.

## "İLK NÖVBƏDƏ UŞAQ FUTBOLUNUN İNKİŞAFINA DİQQƏT YETİRMƏLİYİK"

Rövşən Nəcəfin AFFA prezidenti kimi ilk mətbuat konfransında səsləndirdiyi fikirlər futbol ictimaiyyəti arasında kifayət qədər müsbət qarşılanıb. Yeni rəhbər uğur qazanmaq üçün zamana ehtiyac olduğunu, bütün futbol ictimaiyyətinin ortaq əməyi nəticəsində bunu bacara biləcəklərini qeyd edib:

"Futbol sahəsində irəliyə getmək üçün imkan var. Bunun üçün hamımız birlikdə çalışmalıyıq. Futbol yalnız meydançada yox, meydandan kənarda da oynanılır. Bu baxımdan AFFA, idmançılarımız, federasiyalar, jurnalistlər - hamımız əl-ələ verib ölkə futbolunu zirvələrə çatdırmaq istiqamətində zəruri addımlar atmalıyıq. Əlbəttə, hədəflər bilinməlidir. Qısa müddətdə yeni strategiya işlənib hazırlanacaq. İlk növbədə uşaq futbolunun inkişafına diqqət yetirməliyik. Eyni zamanda azarkeşlərin stadionlara cəlbinə, futbolun popluyarlaşmasına çalışmalıyıq. Azarkeşlərlə, sponsorlarla, media və teleyayım şirkətləri ilə işləyib buna nail ola bilərik. Bir çox insanlar oyunları stadionlardan izləyir və müasir texnologiyalar evdə də stadion şəraiti yaradır. Bu baxımdan biz teleyayım keyfiyyətinin də artırılmasının inkişafında maraqlı olmalıyıq".

### ƏSAS STRATEJİ MƏQAMLAR

Rövşən Nəcəf əsas strateji məqamlara da toxunub. Ölkədə futbolun problemlərindən danışılanda daha çox uşaq futbolunun yetəri qədər inkişaf etməməsi və azarkeşlərin stadionlara gəlməməsi qeyd olunur. AFFA prezidenti də məhz bu məsələləri qabardıb.

Yeni rəhbərliyin qarşısında yaxın gələcək üçün dayanan ilk vəzifə milli komandaya baş məşqçi təyinatıdır. R.Nəcəf bu məsələnin tezliklə rəsmiləşəcəyini bildirib. Yığmanın mövqeyinin qaneedici olmadığını vurğulayan assosiasiya rəhbəri milliyə baş məşqçi təyinatı zamanı əsas göstəricinin onun yerli və ya əcnəbi deyil, komandadan tələb olunan oyun fəlsəfəsinə uyğun olub-olmaması olduğunu qeyd edib.

Rövşən Nəcəf AFFA-da müəyyən struktur dəyişikliklərinin ola biləcəyini də istisna etməyib. Hər halda, ilkin siqnallar pozitivdir. Qarşıda heç də asan olmayan vəzifələr dayanır. Yəqin ki, yaxın zamanda gediləcək yolun xəritəsi hazır olacaq və yeni strategiyanın tətbiqinə başlanılacaq.